Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

1

İYUN 2020-ci il

№ 85 (4216)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# GÜRCÜSTANIN İKİ MƏŞHUR BÖLGƏSİNDƏ GÜRCÜ-AZƏRBAYCANLI ETNİK MÜNAQİŞƏSİ TÖRƏTMƏK CƏHDLƏRİ RƏSMƏN TƏSDİQLƏNİR

səh. 5

Azərbaycan ordu amilini Qarabağ çözümündə ön plana çıxarır...

səh. 9

Aprel müharibəsinin təşəbbüskarı Azərbaycan olmuşdu? - Ermənistan deputatının Zakir Həsənovun dilindən dediyi doğrudurmu...

səh. 4

"Amnesty İnternational"ın növbəti Azərbaycan qərəzi - Qarabağ separatçıları ilə gizli əlaqəsi olan təşkilatdan daha nə gözləmək olar...

səh. 3

Ermənilərin Gürcüstanda gürcü və azərbaycanlılara qarşı qorxunc fəaliyyəti həddini aşır... İki istiqamətli erməni ssenarisi gündəmdə...

səh. 8

Ukrayna deputatı ilə ermənilərin ödənişli "genosid sövdələşməsi" - "Xalqın xidmətçisi" ya erməni qulbeçəsi Dmitruk...

səh. 10

Ermənistan hakimiyyətində ilginc "dəhliz söhbətləri" - Rusiya ilə tək körpü prezident Armen Sarkisyandır...

səh. 5

Azərbaycanın neft qiymətləri ilə bağlı strategiyası özünü doğruldur

səh. 11



səh. 3

## Özünün «müharibə bəyanatı» ilə ermənilərin işinə yaramış azərbaycanlı deputat? - İrəvandan Heydər Əliyevə dair daha bir təhrifçilik...



Ermənistanda Paşinyana alternativ siyasi partiya da yaradıldı - «Vətən» Paşinyanın cəhənnəminə çevrilə bilər...

səh. 4



«Qaydasız davranışlar» arenasına çevrilmiş sosial şəbəkələr ABŞ kimi ölkəni də qorxudursa...

səh. 7

Şərqdə çökmüş rejimləri zəif sayanlara - ABŞ sistemi siyasi sabitliyi sonadək saxlaya bilmir, polisin bir qətl törətməsi...

səh. 7

səh. 6

Düşmən torpaqlarımızdan çıxmaqdan savayı seçimin olmadığını anlamalıdır



səh. 12

Ekspertlər Azərbaycanda qaydaların yumşaldılmasını pandemiyanın artım dinamikasına uyğun saymır - ölkə fəlakət həddində...



səh. 15

Dünya Ərzaq Təşkilatının Azərbaycanda pandemiya dövrü üçün planları - yerli tədarük və idxal...



səh. 14

Maska taxmamağa görə 200 manat cərimə - məsuliyyətli insanlar yüksək məbləği zəruri sayır...



səh. 15

Palma yağlarının insana təhlükəsi barədə deyilənlər doğrumu...



## Vüqar Bayramov Prezidentə yazdı - məni tələbə olaraq dövlət təqaüdü ilə, bacımı isə müəllim olaraq...

**Pandemiya ilə mübarizə dövründə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən bütün tədbirlər vətəndaş məmnunluğuna səbəb olub.**



Suraxanı rayonunun Yeni Suraxanı qəsəbəsindən tələbə Bayramov Vüqar Habil oğlu Prezident İlham Əliyevə ünvanladığı məktubda bildirir:"Sizin bütün addımlarınız, qərarlarınız bir daha göstərdi ki, koronavirus pandemiyası ilə üzləşdiyimiz dövrdə belə xalqımızın rifahının yaxşılaşdırılması istiqamətində gördüyünüz işlər dünya ölkələrinə nümunə oldu. Xalqımızın sağlamlığı və rifahı Sizin üçün birinci dərəcəli məsələdir. Mən də Sizin humanistliyinizdən bəhrələndim. Bu günlərdə məni tələbə olaraq dövlət təqaüdü, bacımı isə müəllim olaraq əməkhaqqı ilə təmin etdiniz. Bu, Sizin bir daha tələbələrə, gənclərə həm maddi, həm də mənəvi cəhətdən göstərdiyiniz qayğının bariz nümunəsidir". Suraxanı sakini məktubunda bütün bunlara görə ölkə başçısına dərin minnətdarlığını bildirir.

*Baki-xeber.com*

## "Hətta pandemiya dövründə ölkədə yeni iş yerləri yaratdınız" - Neftçala şəhərindən Nuriyyə Qədirovanın Prezidentə məktubu...

**Prezident İlham Əliyevin pandemiya ilə mübarizə dövründə iqtisadiyyatın inkişafına, yeni iş yerlərinin yaradılmasına xüsusi diqqət yetirməsi vətəndaşlar tərəfindən təqdir edilir.**

Neftçala şəhərindən Prezident İlham Əlievə məktub ünvanlayan Qədirova Nuriyyə Məhərrəm qızı öz məktubunda bu məsələyə diqqət yetirib:"Siz pandemiya dövrünə baxmayaraq ölkədə yeni iş yerləri yaratdınız. Mən neçə illər idi ki, işsiz idim. Xəstə anamın himayəsində qalırdım. Sizə böyük təşəkkür edirəm ki, mənim kimi işsizlər işlə təmin olunduq. Uca Allahdan Sizə uzun ömür, cansağlığı arzu edirik.

Mən həmişə fəxr etmişəm ki, Sizin kimi Prezidenti olan ölkənin vətəndaşıyam. Siz Azərbaycan Respublikasına rəhbərlik etdiyiniz dövrdən bu günə kimi ölkədə güclü iqtisadiyyat yaratdınız. Siz həmişə hər bir vətəndaşın yanında olmusunuz. Bu günlərdə harınlamış məmurlara qarşı apardığınız mübarizə aztəminatlı təbəqəni çox sevindirir. Bizə bu sevinci yaşadan Sizin qüdrətinizdir".

Məktub müəllifi görülən bütün işlərə görə Prezidentə özünün və anasının adından minnətdarlığını bildirir.

*Baki-xeber.com*

# Müdafiə Nazirliyi: «Silah gücü düşmənlə danışılacaq yeganə dildir»

**Silah gücü düşmənlə danışılacaq yeganə dildir. Bu barədə Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən "Trend"in sorğusuna cavab olaraq bildiriblər.**




Qeyd edilib ki, Azərbaycan Ordusu işğal olunmuş əraziləri azad etmək üçün güc tətbiq etmək hüququndan mütləq istifadə edəcək. Görüləcək tədbirlər 2015, 2016 və 2018-ci illərdəki ilə müqayisədə daha sarsıdıcı və dağıdıcı olacaq. Düşmən böyük itkilər verəcək və bu da öz növbəsində onun tamamilə məğlubiyyətinə gətirib çıxaracaq.

Düşmənlə danışmağın yeganə dili silah gücüdür və biz bundan istifadə edərək Ermənistanın işğalçı qüvvələrini ərazilərimizin hüdudlarını tərk etməyə məcbur edəcəyik.

Azərbaycan əsgəri silahının gücü ilə buna mütləq nail olacaq!

# Azərbaycanda daha 248 nəfər koronavirusa yoluxdu, 101 nəfər sağaldı, 2 nəfər vəfat etdi

**Azərbaycanda 248 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 101 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**



Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1956 və 1960-cı il təvəllüdlü iki nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 5494 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 3428 nəfər müalicə olunaraq sağalıb, 63 nəfər vəfat edib, 2003 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 56 nəfərin vəziyyəti ağır, 65 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 298.648 test aparılıb.



# Kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin qum-çınqılını "torba ilə daşıtdıran" bələdiyyə sədri tutuldu

**Ölkəmizdə əhalinin sosial rifahına kölgə salan korrupsiya və rüşvətxorluq kimi neqativ amillərə, o cümlədən əhalini narahat edən müxtəlif sahələrdə korrupsiya hüquqpozmaları törətmiş vəzifəli şəxslərin qanun qarşısında ifşa və məsuliyyətə cəlb edilməsi istiqamətində prokurorluq orqanları tərəfindən ardıcıl və təxirəsalınmaz tədbirlər davam etdirilir.**

Belə ki, Masallı rayonun Ərkivan-Kosakül ərazisində kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin qanunsuz olaraq qazılıb daşınması barədə Masallı Rayon Prokurorluğundan daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Masallı rayon Ərkivan bələdiyyəsinin sədri vəzifəsini icra etmiş Anar Rəcəbovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini qəsdən pozaraq 2015-2016-cı illər ərzində bələdiyyənin mülkiyyətində olan 5 hektar kənd təsərrüfatı kateqoriyalı, örüş təyinatlı torpaq sahələrinin xüsusi texnikanın köməyilə qazılaraq gil və qum-çınqıl yatağının daşınması nəticəsində yararsız vəziyyətə salınmasına şərait yaradıb təbiətə ümumilikdə 644 min manat məbləğində ziyan vurmasına şübhələr üçün əsaslar müəyyən edildiyindən faktla bağlı Cinayət Məcəlləsinin 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və qanuni mənafeləri pozulmuş vətəndaşların dairəsinin müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**"Mənim addımım" fraksiyasının deputatı Tatevik Hayrapetyan erməni mediasına müsahibəsində bir sıra həqiqətə uyğun olmayan fikirlər səsləndirib. O iddia edib ki, Azərbaycan Ermənistanla təhdid dilində danışa bilməz. Guya hərbi əməliyyatlar başlayacağı təqdirdə Azərbaycan digər ərazilərini də itirəcək. Beynəlxalq birlik buna diqqətlə yanaşmalıdır.**

# Özünün "müharibə bəyanatı" ilə ermənilərin işinə yaramış azərbaycanlı deputat? - İrəvandan Heydər Əliyevə dair daha bir təhrifçilik...

## *Fikrət Sadıqov: "Erməni deputatın səsləndirdiyi fikirlər uydurmadır"*




Bununla belə, T.Hayrapetyan tarixə ekskursiya edərək mərhum prezident Heydər Əliyevin adından yalan danışıb. Müsahibəsində bildirib ki, guya vaxtilə Heydər Əliyev "Artsax" rəhbərliyi ilə müqavilə bağlamağa hazır idi. Təbii ki, onun bu fikirləri yalandır. Heydər Əliyev heç vaxt separatçı rejimin danışıqlarda tərəf olmasını qəbul etməyib. T.Hayrapetyan müsahibəsində onu da qeyd edib ki, Prezident İlham Əliyevin son açıqlamalarından əvvəl azərbaycanlı deputatlardan biri müharibə barəsində danışıb. Bildirib ki, Azərbaycanda müharibədən danışanlar bunun region və Azərbaycan üçün hansı fəlakətli nəticələr yaradacağını unudur.

Maraqlıdır, bəs ekspertlər deyilənləri necə şərh edir? T. Hayrapetyanın yuxarıda toxunduğu iki məqam reallığı əks etdirirmi?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, erməni deputatın səsləndirdiyi fikirlər cəfəngiyyatdır:"Mərhum prezident Heydər Əliyev o vaxt Dağlıq Qarabağdakı separatçılarla danışıq aparmaq, onlarla müqavilə

*"Heydər Əliyev böyük siyasətçi idi və o heç vaxt bu fikirdə olmayıb"*

imzalamaq istəyində olmayıb. O cümlədən, praktiki olaraq belə hal baş verməyib. Mərhum prezident hər zaman ermənilərin yadına Helsinki sazişini salırdı. Həmin sazişdə münaqişə tərəfləri olaraq Ermənistanla Azərbaycan göstərilib. Yəni danışıqlar bu iki tərəf arasında olmalıdır və bu belə də olub. Separatçı qurumun o vaxt danışıqlarda tərəf olmasından hansısa förmada söhbət getməyib. O üzdən, erməni deputatın səsləndirdiyi fikirləri uydurmadır. Heydər Əliyev böyük siyasətçi idi və o heç vaxt bu fikirdə olmayıb. Ona görə də belə fikirlər tamamilə cəfəngiyyat və tarixi saxtalaşdırmaq cəhdidir. Heydər Əliyevin belə bir istəyi olsaydı, o zaman bunu dünya bilərdi.

Belə bir şey heç vaxt olmayıb. Azərbaycanlı deputatın müharibə ilə bağlı sözügedən fikirləri işlətməsini də eşitməmişəm. Görünən odur ki, ermənilər hər şeyi öz xeyirlərinə uyğun təhrif edirlər. Nəzərə almaq lazımdır ki, Azərbaycan işğal altında olan ərazilərin güc yolu ilə azad olunmasını heç zaman istisna etmir. Danışıqlar nəticə verməsə, Azərbaycan güc yolu ilə ərazi bütövlüyünü bərpa edəcək".

***Vidadi ORDAHALLI***

---

**"Amnesty İnternational" təşkilatının Azərbaycanda vəziyyətə həsr olunmuş yeni bəyanatı yayılıb. Bəyanatda qeyd olunur ki, guya Azərbaycan hakimiyyəti pandemiyadan sui-istifadə edərək müxalifətyönlü və vətəndaş fəallarına, müstəqil jurnalistlərə qarşı genişmiqyaslı təqib kampaniyasını davam etdirir. İddia edilir ki, indi də bu proses gedir.**

*"Buna siyasi don geydirmək və prosesdən müxtəlif məqsədlər üçün istifadə etmək doğru deyil"*

# "Amnesty İnternational"ın növbəti Azərbaycan qərəzi - Qarabağ separatçıları ilə gizli əlaqəsi olan təşkilatdan daha nə gözləmək olar...

## *Yadigar Məmmədli: "Sözügedən təşkilatın son bəyanatı növbəti qərəzli yanaşmanı özündə ehtiva edir"*




"Amnesty İnternational"ın Cənubi Qafqaz üzrə tədqiqatçısı Natalya Nozadze iddia edir ki, guya hökumətin koronavirusa qarşı mübarizə tədbirlərini tənqid edənlər təqiblərə məruz qalır: "Amnesty İnternational" bildirir ki, Azərbaycan hakimiyyəti müxalifətyönlü və vətəndaş fəallarına, müstəqil jurnalistlərə qarşı genişmiqyaslı təqib kampaniyasına başlamaq üçün COVİD-19 pandemiyasından istifadə edib. Hökumətin koronavirusa qarşı mübarizə tədbirlərini tənqid edənlər təqiblərə məruz qalır. COVİD-19-un Azərbaycan həbsxanalarında yayılması ilə bağlı artan narahatlıqlar fonunda ölkə hakimiyyəti nəinki siyasi motivlərlə həbs olunmuş məhbusların - azərbaycanlı həmkarlarımızın nüfuzlu rəyinə əsasən, onların sayı ən azı yüz nəfərdir - azad edilməsi məsələsini nəzərdən keçirmir, hətta əksinə, hakimiyyət pandemiyaya qarşı mübarizə bəhanəsilə daha çox tənqidçilərini dəmir barmaqlıq arxasına atır".

Göründüyü kimi, başdan-ayağa iftira və qərəz xarakterli bəyanatdır. Zatən birinci dəfə deyil bu kimi təşkilatların Azərbaycana yönəlik belə qərəzli açıqlamalarının şahidi oluruq. Belə təşkilatlardan biri də "Human Rights Watch"dur. Bu günlərdə ABŞ-ın tanınmış "Newsweek" jurnalı sözügedən təşkilatın İsraillə Ermənistana fərq qoymasını, Ermənistanda baş verən pozuntuları görməzdən gəlməsini, Dağlıq Qarabağdakı separatçılara dəstək verməsini ifşa edib.

Məsələyə münasibət bildirən Demokratik Jurnalistlər Liqasının rəhbəri, media eksperti Yadigar Məmmədlinin sözlərinə görə, "Amnesty İnternational"ın son bəyanatı növbəti qərəzli yanaşmanı özündə ehtiva edir: "Bundan qabaq insan haqlarından danışan bəzi beynəlxalq təşkilatlar oxşar qərəzli açıqlama ilə çıxış ediblər. Həmin təşkilatların hesabatlarında bir sıra ölkələrlə bağlı tənqidi fikirlər var. Ancaq Azərbaycana isə "xüsusi" yer ayırırlar. Bu da onların ölkəmizə qarşı qərəzli olmalarının əyani göstəricisidir. Belə təşkilatlardan biri də "Amnesty İnternational" təşkilatıdır. Nəzərə almaq lazımdır ki, pandemiya qlobal bir problemdir və bütün ölkələrə öz təsirini göstərir. Virusun mənfi təsirləri böyükdür. Mənfi təsiri təkcə insanların virusa yoluxmaları ilə ölçülmür. Bunun həm də iqtisadiyyata dağıdıcı təsiri var. Bu gün bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda insanları bu bəladan qorumaq üçün məhdudlaşdırıcı addımlar atılır. Ölkə səviyyəsində bir sıra işlər görülür ki, COVİD-19-a yoluxanların sayı çox olmasın. Azərbaycan, hətta bu məqsədlə bir sıra ölkələrə humanitar yardım edir. Son dövrlər Azərbaycanda karantin qaydalarının pozulmasına qarşı çox ciddi münasibət var. Kimliyindən asılı olmayaraq, karantin qaydalarını pozan şəxslərə qarşı qanun eyni qaydada tətbiq olunur. Bütün bunlar isə radikal müxalif düşüncəli insanları razı salmır. Onlar fikirləşirlər ki, xüsusi statusa malikdirlər. Ancaq bu belə deyil. Hamı qanun qarşısında bərabərdir. Buna siyasi don geydirmək və prosesdən müxtəlif məqsədlər üçün istifadə etmək doğru deyil. "Amnesty İnternational" və digər bu kimi təşkilatlar Azərbaycanı qaralamaqdan ötrü bundan sui-istifadə edirlər. Bu isə ədalətsiz yanaşmadır".

***Vidadi ORDAHALLI***

**Ermənistan təbliğat maşını növbəti iftirasını dövriyyəyə buraxıb. Belə ki, Azərbaycan müdafiə naziri Zakir Həsənovun keçirdiyi son müşavirədə səsləndirdiyi fikirləri düşmən tərəfi özlərinə sərf edən tərzdə yozub. Erməni KİV-i iddia edir ki, güya Zakir Həsənov 2016-cı ilin aprel ayında olan 4 günlük müharibənin təşəbbüskarının Azərbaycanın olduğunu bildirib.**

# Aprel müharibəsinin təşəbbüskarı Azərbaycan olmuşdu? - Ermənistan deputatının Zakir Həsənovun dilindən dediyi doğrudurmu...

Bu məlumat Ermənistan parlamentinin deputatlarından birinin sosial şəbəkədə yazdığı fikirlərə əsasən tirajlanıb. Halbuki, müdafiə nazirimizin məlum toplantıdakı çıxışında biz erməni tərəfinin iddia etdiyi notlara rast gəlmədik. Belə olan halda erməni tərəfinin Aprel döyüşləri ilə bağlı yalan informasiya ilə manipulyasiya etməsi nə ilə əlaqəlidir? Təbiidir ki, bununla Ermənistan tərəfi yenidən sülh danışıqlarından yayınmaq üçün bəhanə axtarır. Azərbaycan tərəfini sülh danışıqlarından imtina edən tərəf kimi təqdim etməyə çalışır. Aprel döyüşlərinin Azərbaycanın təşəbbüsü ilə başladığına dair indiyə qədər ölkəmizin rəsmi dairələri tərəfindən bir dəfə də olsun məlumat verilməyib. Aprelin 2-dən 6-dək davam edən və ilk dörd günü daha aktiv keçən döyüşlər bütün sərhəd mövqelərimiz və yaşayış məntəqələrimizin atəşə tutulmasından sonra başladı. Həmin vaxt 6 mülki şəxs öldü, ağır yaralananlar oldu, xeyli sayda tikiliyə ziyan dəydi. Bütün bunların qarşısını almaq üçün komandanlıq cavab tədbirləri həyata keçirdi. Təbii ki, müharibə itkisiz olmur. Biz həmin döyüşlərdə qəhrəman zabitlərimizi, gizirlərimizi və əsgərlərimizi itirdik. Allah hər birinə rəhmət eləsin. Əldə etdiyimiz o oldu ki, iki strateji istiqamətdə - həm Lələtəpə (Füzuli, Beyləqan), həm də Tərtər-Ağdərə istiqamətində mövqelərimiz tamam fərqli duruma gəldi. Yəni həmin yüksəkliklərdən düşmən uzaqlaşdırıldı. Silahlı Qüvvələr düşmən təxribatının qarşısının alınması tapşırığı istiqamətində üzərinə düşəni yerinə yetirdi. Azərbaycan Silahlı Qüvvələrinin düşmənə qarşı əks-həmlə əməliyyatının və cavab tədbirlərinin dayandırılmasına baxmayaraq, Ermənistan tərəfi vəziyyəti gərginləşdirməkdə davam etdi. Düşmən tərəfi itirilmiş mövqelərinin geri qaytarılması məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə hücum edib, təmas xəttinə yaxın olan yaşayış məntəqələrini intensiv surətdə atəşə tuturdu. Biz düşündük ki, düşmən aldığı dərsdən nəticə çıxaracaq.




Amma gördük ki, onların yeganə məqsədi Azərbaycanı antiterror əməliyyatdan çəkindirməkdir. Antiterror əməliyyatı ölkəmizin haqqı və hüquqdudur. Çünki BMT Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsi var. Ermənistan maksimum çalışır ki, danışıqlar prosesini uzatsın və status-kvonu saxlasın. Amma dünya da görür ki, uzun illərdir Azərbaycan səbr və dözüm nümayiş etdirir. Bu da sonsuza qədər davam edə bilməz. Dövlətimiz ərazi bütövlüyünü və suverenliyini tam şəkildə bərpa etməlidir və Azərbaycan Ordusu da istənilən zaman buna qadirdir.

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanda "Vətən" adlı yeni siyasi partiya yaradılıb. Erməni KİV-nin verdiyi məlumata görə, "Vətən" partiyasına Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyan rəhbərlik edəcək. Qərar fövqəladə vəziyyətdə, məhdud tərkibdə keçirilən partiya qurultayında qəbul edilib.**

# Ermənistanda Paşinyana alternativ siyasi partiya da yaradıldı - "Vətən" Paşinyanın cəhənnəminə çevrilə bilər...



## *Əhəd Məmmədli: "Bu həm də Paşinyanın reytinqinin düşən vaxtına təsadüf edirsə, düşünülmüş planın tərkib hissəsi ola bilər"*

Partiyanın idarə heyəti də seçilib, onun tərkibinə Vanetsyanın da daxil olduğu 9 nəfər daxil olub.

Vanetsyan hələ 2020-ci ilin fevral ayında siyasi partiya yaratmaq niyyətini açıqlamışdı. Öncə o, əvvəlki hökumətin bir neçə nümayəndəsi ilə birlikdə təhsil məsələləri, vətəndaşlara hüquqi məsləhətlər verməklə məşğul olan "Ayrenik" Fondunu təsis etdi, lakin tədricən fondun partiyaya çevrildiyi aydın oldu. Yeri gəlmişkən, o, müxalif mövqedə olmaq niyyətini artıq açıqlayıb. Bildirilir ki, Vanetsyanın partiyası sürətlə elektoratını artırıb, Paşinyan hökumətinin səhvlərindən yararlanmağa çalışacaq. Ehtimal olunur ki, Paşinyana müxalif olan bütün siyasi qüvvələr yeni partiyaya dəstək verəcək.

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin eks-direktoru Artur Vanetsyan Rusiyaya yaxınlığı ilə seçilən şəxs kimi xarakterizə edilir. O, istefa verib çıxan zaman da qeyd etmişdik ki, 2000-ci illərdə Moskvada FTX-nın ali məktəbində təhsil alıb. Rusiyaya çox bağlı olan bu gənc siyasətçinin siyasi arenaya ciddi iddia ilə qədəm qoyması Paşinyan üçün hansı problemlər yarada bilər?

Politoloq Əhəd Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Rusiyanın Paşinyandan çox narazı olduğu görünür: "Onun hakimiyyətə gəlməsi, sonra zor gücünə baş nazir seçilməsi və ondan sonrakı bütün hadisələrə Rusiyanın narazılığı olub. Xüsusilə də Paşinyanın rəqibi olan eks-prezident Köçəryanın həbsi ilə bağlı məsələdə Rusiya açıq narazılığını ifadə edib. Putinin Köçəryana bir neçə dəfə məktub yazması da bunun sübutu sayıla bilər. Lavrovun münaqişənin həlli ilə bağlı təklif etdiyi mərhələli həll məsələsinə Ermənistanın hakim siyasi elitası açıq etiraz etdi. Hətta bunun fonunda Rusiyaya yönəlik hədələrin şahidi olduq. Bir çox narazılıqlara baxmayaraq, Paşinyanın hakimiyyəti davam edir. Rusiya ilə Ermənistan arasındakı dövlətlərarası münasibətlər müttəfiqlik səviyyəsində inkişafadadır. Paşinyan çalışır ki, Rusiyaya doğru reveranslar etsin. Daxili rəydə Paşinyanın reytinqi sürətlə aşağı enir. Çünki o, iqtisadi rifahın yüksəldilməsi ilə bağlı verdiyi vədləri yerinə yetirə bilmədi. Baş nazir həm də Qərbə inteqrasiya ilə bağlı uğursuzluğa düçar oldu. Pandemiya ilə də bağlı orada vəziyyət pisdir. Rusiyanın onun yerinə alternativ hazırlaması inandırıcı və gözləniləndir. Rusiyanın özündə də hakimiyyət uzun illərdir kəşfiyyatçıların əlindədir. Belə kadrlarla onlara işləmək daha asandır. Vanetsyanın üzərində belə plan qurula bilər. Nəzərə alsaq ki, keçmiş təhlükəsizlik naziri həm də Rusiyaya yaxın adamdır, yeni partiyaya ciddi dəstəyin olacağını gözləmək olar.

Bu həm də Paşinyanın reytinqinin düşən vaxtına təsadüf edirsə, düşünülmüş planın tərkib hissəsi ola bilər. Bunun Azərbaycana heç bir xeyri yoxdur. Sırf Rusiyanın adamının Ermənistanda hakimiyyətə gəlməsi Qarabağ probleminin həllini daha da dalana dirəyə bilər. Biz, kimin orada hakimiyyətə gəlməsindən asılı olmayaraq, çalışmalıyıq ki. tez bir zamanda Qarabağ problemini öz xeyrimizə həll edək".

***Məhəmmədəli QƏRİBLİ***

Gürcüstanın Kvemo Kartli və Kaxeti bölgələrində etnik gürcülər və azərbaycanlılar arasında qarşıdurmanı alovlandırmağa cəhd edən bir neçə qrup və bir sıra vətəndaşlar var. Həmin şəxslər etnik azərbaycanlıların sıx yaşadığı bölgələrdə illər ərzində toplanmış problemlərdən təhrif olunmuş vətənpərvərlik düşüncələrinə əsaslanaraq mənfi kontekstdə istifadə edirlər.

# Gürcüstanın iki məşhur bölgəsində gürcü-azərbaycanlı etnik münaqişəsi törətmək cəhdləri rəsmən təsdiqlənir



## *Arzuxan Əlizadə: "İki dövlət arasında ötən illər ərzində formalaşmış isti münasibətlərdən erməni tərəfi və digər düşmənlərimiz narahatdır"*

Bu barədə Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) yaydığı bəyanatda bildirilib.

Sənəddə deyilir ki, həmin insanlar milli zəmində münaqişə yaratmaq məqsədilə Kvemo Kartli və Kaxeti bölgələrində dövlət və hökumətin səlahiyyətlərinə aid olan məsələlərlə məşğul olurlar. Bildirilir ki, bu istiqamətdə yalan və aqressiv çağırışlar yaymaqla bir qrup şəxs etnik gürcü və azərbaycanlı vətəndaşlar arasında gərginlik yaratmağa çalışır, milli şərəf və ləyaqətə xələl gətirən ifadə və hərəkətlərə yol verirlər. Bununla da insan hüquqlarının kobud şəkildə pozulması baş verir. Bir qrup insan vəziyyəti açıq şəkildə elə təqdim etməyə çalışır ki, guya etnik gürcü əhali Gürcüstandakı digər etnik azlıqlardan üstündür. Bu da milli qarşıdurma risqini daha da artırır.

O da məlum lub ki, DTX-nin Dövlət Təhlükəsizliyi Departamenti irqi ayrıseçkilik, insan haqlarının birbaşa və ya dolayı şəkildə məhdudlaşdırılması, milli zəmində düşmənçilik və diskriminasiya, milli şərəf və ləyaqətin alçaldılması maddələri üzrə istintaqa başlayıb.

Bütün bu deyilənlərin fonunda, sözügedən qarşıdurmada erməni barmağı ola bilərmi?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən AMİP-in sədr əvəzi Arzuxan Əlizadə prinsipcə bunu istisna etmədi: "Əvvəla, azərbaycanlılar Gürcüstanın hazırda Kvemo Kartli adlandırılan Borçalı mahalında, eləcə də Kaxeti və digər bölgələrində, Tbilisi, Rustavi və başqa şəhərlərdə tarixən kompakt şəkildə yaşayıblar. Müstəqilliyimizin ilk illərində, xüsusilə də Qamsaxurdiya dönəmində soydaşlarımıza qarşı etnik zəmində təzyiqlər olduğu və bunun nəticəsi olaraq minlərlə insanımızın öz tarixi yurdlarını tərk etdiyi məlumdur. O zaman Gürcüstanda Şevardnadzenin hakimiyyətə gəlişi və Azərbaycanın dövlət başçısı Heydər Əliyevin müdaxiləsi ilə bu bölgədə vəziyyət stabilləşdi. Növbəti illərdə Azərbaycan Gürcüstana hər sahədə dəstək oldu. Hətta mübaliğəsiz demək olar ki, həmin dövrdə Azərbaycan dövləti tərəfindən edilən iqtisadi yardımlar sayəsində Gürcüstan Respublikası öz müstəqilliyini qoruyub saxlaya və bugünki inkişaf səviyyəsinə çata bildi. Enerji daşıyıcılarının Gürcüstan ərazisi ilə keçməsi sayəsində indi də bu dövlətin iqtisadiyyatı ayaqda qala bilir. Gürcüstana rəhbərlik edən şəxslər də bunu dəfələrlə etiraf ediblər".

*"Gürcüstanda gürcü familiyası daşıyan çoxlu sayda ermənininin olduğunu diqqətdən qaçırmaq olmaz"*

A.Əlizadənin fikrincə, düşmən daim ayaqdadır və bu bölgədə növbəti qaynar nöqtənin yaranmasında maraqlıdır:"Şübhəsiz ki, Azərbaycan və Gürcüstan dövlətləri arasında ötən illər ərzində formalaşmış isti münasibətlərdən erməni tərəfi və digər düşmənlərimiz narahatdır. Gürcüstanda gürcü familiyası daşıyan çoxlu sayda ermənininin olduğunu diqqətdən qaçırmaq olmaz. Onlar tərəfindən dəfələrlə müxtəlif problemləri qabartmaqla iki xalqın nümayəndələri arasında etnik zəmində qarşıdurma yaratmaq cəhdləri olub.

Əlbəttə, onu da nəzərə almaq lazımdır ki, tarixən bu bölgədə məskunlaşan soydaşlarımızın iqtisadi, siyasi və sosial problemləri də yox deyil. Bütün bunların fonunda Gürcüstan hökuməti həmin ərazilərdə yaşayan azərbaycanlıların problemlərini daima diqqət mərkəzində saxlamalıdır. Azərbaycan dövlətinin də Gürcüstanda yaşayan soydaşlarımıza diqqəti bir qədər də artırması zəruridir. Unutmaq olmaz ki, düşmən daim ayaqdadır və bu bölgədə növbəti qaynar nöqtənin yaranmasında maraqlıdır. Hazırda Ermənistan adlanan ərazidə tarix boyu yaşayan və yaxın keçmişimizdə doğma yurdlarından didərgin salınan soydaşlarımızın acı taleyindən nəticə çıxarmaq lazımdır. Heç bir halda Azərbaycan və gürcü xalqları arasında münasibətlərin korlanmasına rəvac vermək olmaz".

**Vidadi ORDAHALLI**

---

Ermənistan cəmiyyətində və siyasi dairələrdə baş nazir Nikol Paşinyanın fəaliyyətindən narazılıq artır. Hakimiyyətin və şəxsən baş nazir Nikol Paşinyanın Ermənistan daxilində reytinqi ilk növbədə koronavirusla bağlı problemlər fonunda düşür.

# Ermənistan hakimiyyətində ilginc "dəhliz söhbətləri" - Rusiya ilə tək körpü prezident Armen Sarkisyandır...



## *Mübariz Əhmədoğlu: "Minasyanın düsturuna görə, "Mənim addımım" fraksiyasının içindən kimsə baş nazir vəzifəsinə gətirilməlidir"*

Ancaq bununla belə, xarici siyasətdəki uğursuzluqlar da buna öz təsirini göstərir. Paşinyanı daim pisləşən Ermənistan-Rusiya münasibətlərində günahlandırırlar ki, bu da özünü Putinin Ermənistanın təklif etdiyi qiymətə ona qaz satmaq istəməməsində və Rusiyanın xarici işlər naziri Lavrovun Qarabağ probleminin mərhələli şəkildə həllinin vacibliyinə diqqət yetirdiyi bəyanatında büruzə verib.

Bu arada erməni mediası yazır ki, Ermənistanda Paşinyanın yumşaq şəkildə kənarlaşdırılması planlaşdırılır. Belə ki, hakimiyyətin ali eşelonlarında onun "tranzit" məsələsi fəal müzakirə olunur. Ermənistan hökumətinin Rusiya ilə (təkcə Rusiya ilə yox) gərgin münasibətləri fonunda isə məsələ daha da aktuallaşıb. Ermənistandakı "Fakt" qəzetinin məlumatına görə, bir neçə variant müzakirə olunur və onlardan biri Ermənistan prezidenti Armen Sarkisyana aiddir. Qəzetin fikrincə, Paşinyan hakimiyyətdə olduğu iki il ərzində bütün körpüləri yandıra və bütün mümkün sərhədləri keçə bilib. Salamat qalmış yeganə "körpü" prezident Armen Sarkisyanla əlaqədir ki, hazırda bundan istifadə etməyə çalışırlar.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu erməni mediasında Paşinyanın hakimiyyətdən kənarlaşdırılması ilə bağlı yazılanlara bir neçə aspektdən yanaşdı:"Ölkə konstitusiyası hazırkı şəraitdə buna imkan vermir. Yəni konstitusiya ilə Ermənistan prezidentinin, o cümlədən baş nazirin səlahiyyəti dəqiq bəllidir. Bu o deməkdir ki, prezident baş nazirin səlahiyyətinə yiyələnə bilməz. Yalnız müstəsna hallarda bu baş verə bilər. Bunun mahiyyəti ondan ibarətdir ki, Ermənistanda müharibə baş verərsə, o zaman parlament ali baş komandan seçməlidir. İndiki baş nazir ordunun komandanı deyil. Ordunun komandanı müharibə vaxtı seçilməlidir. Bu zaman parlament sərbəstdir. Bu isə o deməkdir ki, parlament prezidenti ali baş komandan seçə bilər. Bu gün Ermənistan parlamentində müxalifət zəifdir. Ölkədə isə müxalifətin mövqeyini əsasən iki adam ifadə edir. Bunlardan biri Ermənistanın keçmiş təhlükəsizlik xidmətinin rəisi Artur Vanetsyan və sabiq prezident Serj Sarkisyanın kürəkəni, Vatikanda səfir işləmiş Mikael Minasyandır. Əsasən bu iki şəxs Paşinyanı kəskin tənqid edir və ortaya faktlar qoyurlar. Minasyanın düsturuna görə, "Mənim addımım" fraksiyası Paşinyanı vəzifədən uzaqlaşdırmalıdır. Fraksiyanın içindən kimsə baş nazir vəzifəsinə gətirilməlidir. Hesab edirəm, bu variant daha real görünür, nəinki hakimiyyətin Armen Sarkisyana ötürülməsi".

*"Hesab edirəm, bu variant daha real görünür, nəinki hakimiyyətin Armen Sarkisyana ötürülməsi"*

**Vidadi ORDAHALLI**

# Düşmən torpaqlarımızdan çıxmaqdan savayı seçimin olmadığını anlamalıdır

**Son zamanlar daha çox müharibə çağırışı edənlərlə dinc vasitələr axtarışında olanlar arasında mətbuatda, sosial şəbəkələrdə qarşılıqlı ittihamlar səslənir. Heç bir tərəfdə xəyanətkar axtarmadan ehtiyatlı olmaq və mətbuatımızın həm də Ermənistanda izləndiyinin nəzərə alınmasını xatırlatmaq istəyirəm.**

Qəribədir ki, polemikalar hərbi təlimlər keçirdiyimiz zamana təsadüf etdi.

Budəfəki hərbi təlimlər sülh danışıqlarının tam fiaskoya uğradığı vaxta təsadüf edir. Azərbaycan prosesi qabağa aparan, fəallaşdıran, sürətləndirən formatlardan biri kimi hərbi təlimləri doğru seçib. Hətta növbəti təlimlər üçün də anons vermək olar ki, hədəf atışları Qarabağ ətrafında işğal olunmuş ərazilərdə keçiriləcək. Bu ərazilərdəki hər hansı hərəkətlilik üçün heç bir subyekt qarşısında hesabatlı deyilik. Çünki bu halda Azərbaycan nəinki Ermənistana hücum etmir, heç öz ərazisi olan Qarabağda da erməni əsilli azərbaycanlıları narahat etmir, etnik təmizləmə aparmır, özünün beynəlxalq miqyasda tanınan ərazisində təlim keçirmiş olur. Rəsmi İrəvan bir-birinin ardınca dinc nizamlanma prosesini mənasız edən təxribatçı bəyanatlarla çıxış etdiyi zaman keçirdiyimiz təlimlər İrəvana mesajdır. Çünki Ermənistan faktiki əraziləri qaytarmaqdan imtina edir. Dinc danışıqlarla nizamlanmanın alternativi isə hərbdir. "Azərbaycan müharibəyə hazırdır" deməkdir. Bu güc prestijinin cəmiyyət tərəfindən qüvvətləndirilməsi gərəkdir.

Əksinə, çəkingən bəyanatlar vermək, hərbi təlimlər də daxil olmaqla, bu siyasətə sərf olunan vəsaitin də, əməyin də üstündən xətt çəkmək, bilərəkdən və ya bilməyərəkdən düşmən dəyirmanına su tökməkdir. Bu çəkingənlik və qorxmağa bəhanə axtarışı sərgilənən diyi sürəcdə təlimlər və "problemin dinc yolla həlli mümkün deyilsə, güc yolu ilə həll ediləcək" bəyanatları ciddiyə alınmaz.

Keçirilən irimiqyaslı hərbi təlimlər düşmənin psixoloji durumuna təsir edir.

Təlimlərin mahiyyəti Ermənistan işğalçı ordusu ərazimizdən xoşluqla çıxmayacağı halda hərbi yolla çıxardılacağını nümayiş etdirməkdir. Hərbi təlim gücü yoxlamaq və gerçək savaşı məşq etməklə yanaşı, düşmənə psixoloji təziqdir. Bu təlimlər Ali Baş komandanın iradəsi ilə keçirilir. Ən azından, hərbi təlimlər keçirdiyimiz bir zamanda hamının nəbzi eyni vurmalıdır. Bu zaman kəsiyində - ordumuzun əzələ nümayişi zamanı mediada çəkingənlik nümayiş etdirmək müdriklik deyil və görülən işlərə zərər verir.

İndi sosial şəbəkə və KİV-də guya təmkin və analitik düşünmə sonucu olaraq vəziyyətlə barışmaq, sonsuz bir müddətə danışmaq, "savaş olarsa düşmən Kür çayına qədər gələ bilər" ifadəsi işlətmək, ən azı, yaranmış psixoloji ab-havanı əleyhimizə dəyişə bilər. Nəzərə almaq lazımdır ki, biz erməni mətbuatını izlədiyimiz kimi, ermənilər də bizim mətbuatı izləyir.

Əlbəttə, ölçülü-biçili, prosesi xeyirimizə dəyişən hesablanmış addımların atılması zəruridir. Xüsusilə hərb variantı ilə bağlı. Bu planlama Ali baş komandan tərəfindən generalitet və strateji mərkəzlərlə həll olunar. Bunu Prezidentin 28 may çıxışında da duymaq mümkündür. Bizim məqsədimiz, əsas amalımız suverenliyimizi tam və birdəfəlik təmin etməkdir və biz bunu edəcəyik. Heç kimdə şübhə olmasın. Sadəcə, daha güclü olmalıyıq, məsələnin həlli üçün vaxtı və geosiyasi vəziyyəti düzgün qiymətləndirməliyik."

İctimai rəy liderlərinin isə indiki anda Qarabağ məsələsi ilə bağlı yanaşmalarında xeyrimizə dəyişmiş psixoloji duruma zərər verməməyi önəmlidir. Bunun kəsinliklə nəzərə alınması lazım. Biz ədalətli sülh istəyirik, hərb istəmirik, amma hərbə hazırıq- fəlsəfəsi ilə davranmalıyıq. Düşmən tərəf torpaqlarımızdan çıxmaqdan savayı seçimin olmadığını anlamalıdır.



Ehtiyatlı mövqe nümayiş etdirənlərin bəziləri müharibə çağırışı sonuclarından ehtiyatlanan adamlardırsa da, bəziləri sadəcə indiki status-kvodan məmnun halda "vətənim villam, millətim ailəm" yanaşması ilə zamanı ötürmək, şəxsi rahatını risqə buraxmaq istəməyənlərdir. Parlamentin ilk iclasında ölkə prezidenti susmamağa, həqiqətləri deməyə, təhdidlərin qarşısında dayanmağa çağırış etdi. Bu çağırışa əməl etmək əvəzinə əhalidə ruh düşkünlüyü yaradanlara yenə də prezident öz bəyanatları ilə örnək oldu. Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də çıxışı zamanı deyib:

-Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, bunu deməyə əsas verən bir çox amillər var - bizim hərbi gücümüz var və biz bunu göstərmişik. 2016-cı və 2018-ci illərdə uğurlu hərbi əməliyyatlar nəticəsində minlərlə hektar torpaq işğalçılardan azad edildi...

-Bu gün biz elə bir qüdrətli ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik. Əlbəttə ki, sadaladığım bütün bu müsbət amillər, eyni zamanda, demoqrafik vəziyyət bizim üstünlüyümüzü bundan sonra da təmin edəcək. Dağlıq Qarabağ probleminin həlli tarixi məsələdir və biz bu məsələni birdəfəlik və tam həll etməliyik. Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmalıdır.

Prezidentin bu çağırışları, məncə, "qorxmağa bəhanə axtaranlar"ın mövqelərinə yenidən baxmasına kifayət edər.

"Sonsuz səbrli" olmağı tövsiyə edənlər anlamalıdırlar ki, atəşkəs sülh müqaviləsi deyil, müqaviləni hazırlamaq üçün pauzadır. Bu pauza on illərlə davam edə bilməz. Ermənistan ən müxtəlif bəhanələrlə vaxtı uzatmaq və Azərbaycan cəmiyyəti üçün "sakitləşdirmə", "unutdurma" taktikasına üstünlük verir. Bunun alternativi vaxt uzandıqca cəmiyyətin daha da aqressivləşdiyini göstərməkdir. Kimsə öz yorğunluğunu, bitkinliyini, ümidsizliyini millətin adından bəyan edərək düşməni ruhlandıra bilməz.

2016-cı ilin aprel savaşı millətimizin savaşa münasibətini sərgilədi. 2016-cı ildə erməni ordusunun "məğlubedilməzlik" mifini darmadağın edən bir neçə günlük savaş hələ də Ermənistanda müzakirə olunur. Buna görə Ermənistan hərbi rəhbərliyindən bir neçə nəfər işdən qovulub və xüsusi təhqiqat komisiyyası işini davam etdirir.

Bu əməliyyatın bir neçə baxımdan mühüm əhəmiyyəti oldu. Əməliyyat təkcə yüksəkliklərin tərəfimizdən geri alınması, müəyyən ərazilərin azad olunması, düşmənin xeyli itki verməsi baxımından deyil, ən əsası psixoloji-mənəvi cəhətdən əhəmiyyətli idi.

-Ermənistan ictimaiyyətinin öz ordusu haqqında real təsəvvürü və Azərbaycan ordusu haqda real təsəvvürü formalaşdı;

-vasitəçilərin təsəvvürü dəyişdi, danışıq və dinc vasitələrdən yayınma halında Azərbaycan haqqı olan digər yoldan-hərbi yoldan istifadə edəcək qənaəti formalaşdı. Və Azərbaycanın xəbərdarlıqlarının söz güləşdirmək yox, günün birində qəfil həyata keçirilə biləcək son həmlə ola biləcəyi anlaşıldı;

-Azərbaycan xalqının da özünə inamı bərpa olundu;

-Azərbaycan ictimaiyyətinin də öz ordusu haqqında real təsəvvürü və Ermənistan ordusu haqda təsəvvürü dəyişdi;

-Xalq prosesə ciddi dəstək verdi, bəlkə də bəziləri xalqın döyüş bölgələrindən gedəcəyini gözlədiyi halda xalq əksinə döyüş bölgələrinə getdi və bunu bütün dünya müşahidə etdi.

Azərbaycan müdafiə naziri cənab Zakir Həsənov 2020-ci il 30 mayda açıqlamasında isə bu mövzuda gözlənilən sonucu ifadə etdi - "bu dəfə görüləcək tədbirlər 2016-cı ilin aprelindən tam fərqli olacaq, vurulacaq zərər Ermənistanın siyasi, iqtisadi və hərbi tənəzzülünə gətirib çıxaracaq".

Prezidentin bəyanatlarından sonra Müdafiə nazirinin də yanaşmasını ona görə xatırlatdım ki, hər kəs məsuliyyətini hiss etsin. Problemin qeyri-hərbi yolla həllini arzulayanlar problemin hərbi yolla həllinə hazır olduğumuzu daha uca səslə deməlidirlər ki, həm də bölgədə sabitlik istəyənlər bu əhvalı nəzərə alaraq dinc yolla ədalətli status-kvonun bərpası üçün Ermənistanı məcbur edəcək addımlar atsın.

Çağırışımı Prezident, Ali Baş komandan İlham Əliyevin çıxışındakı bir fikirlə tamamlayıram: "Danışıqlar öz yerində, ancaq indi dünyada siz də yaxşı görürsünüz ki, güc amili ön plana çıxır, bəzi ölkələr, hətta böyük demokratik ənənələri olan ölkələr də bəzi hallarda beynəlxalq hüquqa məhəl qoymadan öz maraqlarını təmin edirlər. Nəyin hesabına? Gücün hesabına!"

***Fərəc QULİYEV***
***Milli Dirçəliş Hərəkatı Partiyasının sədri***

**ABŞ-da afroamerikalı Corc Floydun polis əməkdaşları tərəfindən saxlandıqdan sonra ölməsi hadisəsinin səbəb olduğu iğtişaşlar zamanı hüquq-mühafizə orqanlarının əməkdaşları mayın 28-dən bəri 17 şəhərdə 1 383 nəfəri saxlayıb. ABŞ mediası saxlanılanların sayının daha çox ola biləcəyini də qeyd edib.**



# Şərqdə çökmüş rejimləri zəif sayanlara - ABŞ sistemi siyasi sabitliyi sonadək saxlaya bilmir, polisin bir qətl törətməsi...

## *Rəşad Bayramov: "Bu məsələdə ABŞ balaca bir hadisəyə görə stabilliyi pozulan və çökən Şərq ölkələrindən heç nə ilə fərqlənmir"*

Xatırladaq ki, Corc Floydun ölümü ilə nəticələnən saxlanma anının videogörüntülərinin yayılması Minneapolisdə və başqa şəhərlərdə kütləvi qarışıqlıqlara səbəb olub. Videoda polis əməkdaşlarının Floydu yıxaraq qollarını qandallamaları, həm də zabitlərdən birinin dizi ilə onun boynunu sıxması əks edilir. Saxlanılan şəxs əvvəlcə bir neçə dəfə nəfəs ala bilmədiyini deyib, sonra isə huşunu itirib. Floyd xəstəxanaya yerləşdirilib və reanimasiyada ölüb. İğtişaşlar başladıqdan sonra dörd polis əməkdaşı işdən çıxarılıb, onlardan biri isə ehtiyatsızlıqdan adam öldürməkdə ittiham edilib.

Görünən budur ki, ABŞ-dakı sistemin dayanıqlı olması ilə bağlı yaradılan rəy şişirdilibmiş. Misirdə, Suriyada, Tunisdə bir hadisəyə görə ölkəni bürüyən iğtişaşlar ABŞ-da da eynilə təkrar edilirsə, bu, sabitliyin heç də deyilən formada ideal olmadığını şərtləndirə bilərmi?

Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri, politoloq Rəşad Bayramov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ABŞ-da irqi ayrıseçkilik zəminində baş verən iğtişaşların ilk dəfə deyil ki, şahidi oluruq:"Zaman-zaman qaradərili əhaliyə qarşı polis zorakılığı əhalinin ayağa qalxmasına və iğrişaşlara səbəb olub. Bu dəfə Corc Floydun ölümü ilə nəticələnən polis zorakılığı nəticəsində ABŞ-ın bir neçə şəhərində, o cümlədən Minneapolis, Sent-Pole, Atlanta, San-Xose, Hyustonda və paytaxt Vaşinqtonda başlayan etiraz aksiyaları artıq 17 şəhərdə geniş vüsət alıb və 3 gün ərzində 1400 nəfərin həbs olunmasına gətirib çıxarıb.

İğtişaşları daha da alovlandıran isə ABŞ prezidenti Trampın Twitter hesabındakı "Kresloma yaslanıb Minneapolisdə baş verənləri laqeydliklə izləyə bilmərəm. Ya Minneapolisin çox zəif, solçu bələdiyyə sədri Jacob Frey tələsik şəhəri nəzarət altına alsın, ya da mən Milli Mühafizləri göndərib məsələni həll edərəm" paylaşımı oldu. Bu gün məlum olur ki, etiraz aksiyalarının gedişində ölən və yaralananlar var və artıq ABŞ-ın 16 ştatının 25 şəhərində komendant saatı tətbiq olunub. Çox təəssüf ki, bu ölkənin dövlət xadimləri, siyasətçiləri irqi ayrıseçkilik problemi haqqında mütəmadi olaraq uzun-uzadı danışsalar və mübahisə etsələr də, real addımlar atmırlar. Hər dəfə ABŞ-da oxşar hadisələrdən sonra problemlə bağlı müzakirələr aparılır, amma nəticə etibarilə bütün bunlar qaradərili əhaliyə qarşı polis zorakılığının aradan qaldırılması üçün real addımların atılmasına gətirib çıxarmır".

Ekspertin sözlərinə görə, özünü demokratiyanın beşiyi adlandıran və bütün dünyaya insan hüquq və azadlıqları ilə bağlı dərs keçən ABŞ anlamalıdır ki, irqi və dini ayrıseçkiliyin aradan qaldırılması istiqamətində ciddi tədbirlər görməyin zamanı çoxdan çatıb:"Bizim ölkəmizdə insan haqları ilə bağlı hər hansı bir problem yarananda ABŞ-ın hüquq müdafiə təşkilatları dərhal reaksiya verirlər.

Amma indiki halda onların da əksəriyyətinin susduğunu müşahidə edirik. Düşünürəm ki, ABŞ-da baş verənlər təkcə bu ölkənin daxili işləri kimi qiymətləndirilməməli, Azərbaycanın hüquq müdafiəçiləri, millət vəkilləri, ayrı-ayrı siyasi partiyalar və ombudsman da hadisə ilə bağlı öz etiraz səsini ucaltmalıdır. ABŞ rəsmiləri də görməlidirlər ki, bütün dünya günahsız insanların irqi motivlərlə qətlə yetirilməsindən narahatdır. Biz bir daha şahidi olduq ki, bu məsələdə ABŞ balaca bir hadisəyə görə stabilliyi pozulan və çökən Şərq ölkələrindən heç nə ilə fərqlənmir".

***Məhəmmədəli QƏRİBLİ***

**Donald Trampın "Twitter" ilə çəkişməsi bütün dünyada "sosial şəbəkələr necə tənzimlənməlidir" sualını aktuallaşdırdı. Bu məsələnin çox tərəfləri var. Amma bütün hallarda, söhbət iki ağırlıq mərkəzinin arasında balansın qurulmasından gedir: paylaşılan informasiyalara görə ya istifadəçi qanun qarşısında cavabdeh olmalıdır, ya da şəbəkə administrasiyası.**




# "Qaydasız davranışlar" arenasına çevrilmiş sosial şəbəkələr ABŞ kimi ölkəni də qorxudursa...

## *Azər Həsrət: "Biz müşahidə etmişik ki, ermənilərlə bağlı paylaşımlar edənlərin sosial media hesabları tez-tez bloklanır"*

ABŞ Prezidenti Donald Tramp "Twitter" səhifəsində yazıb ki, sosial şəbəkələr mühafizəkarların tərəfdarlarına qarşı qərəzli siyasətlərini davam etdirsələr, ABŞ hakimiyyəti onların fəaliyyətini sərt şəkildə tənzimləyəcək. Tramp bildirib ki, respublikaçılar sosial şəbəkələrin mühafizəkarların səslərini tamamilə boğduğunu hiss edir: "Biz 2016-cı ildə onların nə etdiklərini gördük, amma sonra uğursuz oldu. Yenidən oxşar halın baş verməsinə icazə verə bilmərik".

Ağ Ev rəhbəri əlavə edib ki, sosial şəbəkələrin qərəzli yanaşmalarına görə onların fəaliyyəti dayandırıla bilər. Tramp, həmçinin, "Twitter"i prezident seçkilərinə müdaxilə və söz azadlığını boğmaqda ittiham edib.

Trampın sosial şəbəkələrlə bağlı yaratdığı intizama nə dərəcədə ehtiyac var və sosial şəbəkələrdə indiki Azərbaycan necə görsənir?

Media eksperti Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ABŞ prezidentinin davranışı bizim illərlə dilə gətirdiyimiz, lakin Qərbin inkar etdiyi bir gerçəyi təsdiqləmiş olur:"Onlayn platformalar bir qayda olaraq birtərəflidir və müəyyən mərkəzlərin maraqlarına xidmət edirlər. Özlərinə sərf etməyən paylaşımları bu və ya digər şəkildə əngəlləməyə çalışırlar. Biz müşahidə etmişik ki, ermənilərlə bağlı paylaşımlar edənlərin sosial media hesabları tez-tez bloklanır. Ermənilərlə bağlı bizim etdiyimiz şikayətlər isə qulaqardına vurulur. Bu ondan xəbər verir ki, sosial media platformaları heç də iddia edilən kimi obyektiv deyil. Trampın başına gələn də bundan ibarətdir. Onun səsvermə ilə bağlı paylaşdığı tvitə həmin şəbəkənin başbilənləri müdaxilə edib. Prezidentin paylaşımı potensial yanıldıcı informasiya kimi təqdim olunub. Tramp da deyir ki, paylaşım mənimdirsə, ona hər hansı təqdimat verilə bilməz. Bu səbəbdən də onlayn senzura ilə bağlı icra sənədi ortaya çıxdı. "Twitter" rəhbərliyi isə bunu dövlətin müdaxiləsi kimi qiymətləndirir. Burada hər hansı müdaxilədən söhbət getmir. Məsuliyyətlə müdaxiləni birbirinə qarışdırmamalıyıq. Sosial media platformalarının bütün istifadəçilərə bərabər davranması tələb edilirsə, burada hansı müdaxilədən söhbət gedə bilər? Trampın sərəncamı senzuranın yolverilməzliyini bir daha təsdiqlədi. Düşünürəm ki, bundan sonra sosial media platformaları daha dəqiq və məsuliyyətli olacaqlar. Belə anlaşılır ki, sosial media platformaları iddia etdikləri kimi sərbəst özünüifadə üçün imkan demək deyil. Onlar özlərinə sərf edən özünüifadənin sərbəstliyi üçündür. Yəni hədsiz azadlıq söhbəti yalandır. Özü də bu, ABŞ-da belədir. Elə sözügedən sərəncamda da qeyd edilir ki, ABŞ-ın dövlət qurumları son həftələr ərzində 16 mindən artıq şikayət alıblar ki, sosial media vətəndaşlara senzura tətbiq edir. Tək-tək vətəndaşlar konkret faktları ABŞ Administrasiyasına göndərməklə faktiki senzuranın tətbiq edilməsini sübut etmiş olub. Donald Tramp sərəncamı imzalarkən həm də bu amili əsas götürüb.

Bu olanları Azərbaycan baxımından da şərh etmək olardı. Misal üçün, belə bir sənədi Donald Tramp deyil, Azərbaycan Prezidenti İlham Əliyev imzalasaydı dünyada nə baş verərdi? O baş verərdi ki, insan hüquqlarını qoruduğunu iddia edən təşkilatlar səs-səsə verib ölkəmizi ittiham edərdi. Lakin göründüyü kimi, ABŞ-la bağlı belə bir hərəkətlilik gözə dəymir".

***Məhəmmədəli QƏRİBLİ***

**Cənubi Qafqazda Ermənistanın, ona bağlı qüvvələrin təkcə Azərbaycan yox, həm də regionun digər dövləti olan Gürcüstan üçün ciddi təhdid yaratdıqları birmənalı həqiqətdir. Hazırda ermənilərin Gürcüstan üçün hazırladığı düşmən ssenarisi iki istiqamətdən özünü göstərir.**

# Ermənilərin Gürcüstanda gürcü və azərbaycanlılara qarşı qorxunc fəaliyyəti həddini aşır... İki istiqamətli erməni ssenarisi gündəmdə...

Bunlardan birincisi Gürcüstana qarşı olan ərazi iddialarıdır.

Məlumdur ki, ermənilər uzun müddətdən bəri Gürcüstanda Samtsxe-Cavaxetiya bölgəsini ələ keçirmək istiqamətində intensiv iş aparır. Bu xüsusda gürcü tərəfinin gördüyü qabaqlayıcı tədbirlər hələ də istənilən nəticəni vermir. Əvəzində ermənilərin daha bir istiqamətdə təhlükəli fəaliyyəti genişlənir. Söhbət Gürcüstanda yaşayan etnik azlıqlarla gürcü milləti arasında qarşıdurma yaratmaq səylərindən gedir. Ermənilərin bu istiqamətdə əsas fəaliyyəti hazırda Gürcüstan azərbaycanlıları ilə gürcülər arasında qarşıdurma yaradılması üzərində qurulub. Bu barədə danışmazdan öncə qeyd edək ki, Gürcüstanda əhalinin 83,8%-ini təşkil edən gürcülərdən əlavə digər böyük etnik qruplar da var. Bunların 6,5%-i azərbaycanlılar, 5,7%-i ermənilər, 1,5%-i ruslar, qalanları abxazlar, acarlar və osetinlərdir. Cənubi Qafqazın yerli sakinləri olmayan ermənilər XXI əsrdən etibarən, Qafqazın digər regionları ilə yanaşı, Gürcüstanda da məskunlaşdırılıb. O vaxtdan bəri ermənilər, Azərbaycan və Türkiyə ilə olduğu kimi Gürcüstan hesabına da "Böyük Ermənistan" yaratmaq iddiasındadırlar. Yuxarıda qeyd edildiyi kimi, onlar Gürcüstanın Samtsxe-Cavaxetiya bölgəsini öz əraziləri hesab edirlər. Eyni zamanda burada etnik zəmində qarşıdurma yaratmağa da çalışırlar. Bunu gürcü tərəfi özü də etiraf edir. Keşikçidağ ətrafında yaranan məlum durum fonunda bu hal özünü aydın göstərdi. Bu xüsusda ötən ayın əvvəlində Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin hesabatında maraqlı məqamlar qeydə alındı. Burada qeyd olunurdu:"Ötən il bəzi qruplar və fərdi şəxslər də daxil olmaqla, müxtəlif qüvvələr



Keşikçidağ ətrafındakı hadisələrdə milli dəyərləri qorumaq adı altında iştirak ediblər". Sənəddə bildirilirdi ki, Gürcüstan-Azərbaycan sərhədində vəziyyətin saxtalaşdırılması ilə dağıdıcı kampaniya aparılıb və bu kampaniya strateji tərəfdaşlıq əlaqələrinə malik iki ölkə arasında əlaqələrin zədələnməsi məqsədi güdüb:"Bölgədəki geosiyasi çətinliklər fonunda Gürcüstan Türkiyə, Ermənistan və Azərbaycanla qonşuluq münasibətlərini davam etdirir. Bununla belə, davam edən ikitərəfli münasibətlərə birbaşa və ya dolayı yolla müdaxilə və onların qəsdən zədələnməsi üçün davamlı cəhdlər mövcuddur. Gürcüstan etnik və dini müxtəlifliyə görə daim dözümsüzlük və separatizm təzahürlərinin eskalasiyası təhlükəsi altındadır. Məhz buna görə xarici ölkələrin xüsusi xidmət orqanları Gürcüstanın müəyyən bölgələrinə maraq göstərir. 2019-cu ildə Gürcüstanda ultrasağ düşüncəli qruplarla bağlı risqlər müəyyən edilib. Bu cür fikirlər davam edən qlobal böhran nəticəsində artan beynəlxalq miqrasiya prosesi ilə də bağlı olub". Hesabatda vurğulanırdı ki, Gürcüstanın təhlükəsizliyi üçün önəmli problemlərdən biri də hibrid təhdidlərdir: "Gürcüstanda təsirə sahib olmaqda maraqlı ölkələr məqsədlərinə nail olmaq üçün "hibrid müharibə" alətlərini daha effektiv istifadə etmək məqsədilə cəmiyyətdə müxtəlif qrupları araşdırmağı davam etdiriblər". Elə o vaxt aydın idi ki, söhbət burada əsas etibarı ilə ermənilərdən, Ermənistanın xüsusi xidmət orqanlarından gedir. Çünki məhz ermənilər gürcülərlə azərbaycanlıların arasında problemlərin olmasında xüsusi maraqlı tərəf kimi çıxış edir.

Bütün bunların ardınca indi yayılan yeni məlumatlar göstərir ki, bu istiqamətdə ermənilərin mənfur fəaliyyəti davam edir. Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı yeni bəyanatdan da bunu aydın sezmək olar. Burada qeyd olunur ki, Gürcüstanın Kvemo Kartli və Kaxeti bölgələrində etnik gürcülər və azərbaycanlılar arasında qarşıdurmanı alovlandırmağa cəhd edən bir neçə qrup və bir sıra vətəndaşlar var. Həmin şəxslər etnik azərbaycanlıların sıx yaşadığı bölgələrdə illər ərzində toplanmış problemlərdən təhrif olunmuş vətənpərvərlik düşüncələrinə əsaslanaraq mənfi kontekstdə istifadə edirlər. Sənəddə deyilir ki, həmin insanlar milli zəmində münaqişə yaratmaq məqsədilə Kvemo Kartli və Kaxeti bölgələrində dövlət və hökumətin səlahiyyətlərinə aid olan məsələlərlə məşğul olurlar. Bildirilir ki, bu istiqamətdə yalan və aqressiv çağırışlar yaymaqla bir qrup şəxs etnik gürcü və azərbaycanlı vətəndaşlar arasında gərginlik yaratmağa çalışır, milli şərəf və ləyaqətə xələl gətirən ifadələr və hərəkətlərə yol verir. Bununla da insan hüquqlarının kobud şəkildə pozulması baş verir. Bir qrup insan vəziyyəti açıq şəkildə elə təqdim etməyə çalışır ki, guya etnik gürcü əhali Gürcüstandakı digər etnik azlıqlardan üstündür. Bu da milli qarşıdurma risqini daha da artırır. DTX-nin Dövlət Təhlükəsizliyi Departamenti irqi ayrı-seçkilik, insan haqlarının birbaşa və ya dolayı şəkildə məhdudlaşdırılması, milli zəmində düşmənçilik və diskriminasiya, milli şərəf və ləyaqətin alçaldılması maddələri üzrə istintaqa başlayıb. Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidməti günahkarların kimliyini açıqlamasa da, məlumdur ki, söhbət burada əsas etibarı ilə məhz ermənilərdən gedir. Məsələ burasındadır ki, rəsmi Gürcüstan hökuməti Ermənistanla diplomatik səviyyədə normal münasibətlər saxlamağa çalışdığı üçün baş verənlərin arxasında ermənilərin dayandığını birbaşa bəyan etmir.

Lakin gürcü xalqı arasında ermənilərə mənfi münasibət var. Gürcüstanda yaşayan yerli ermənilərin ərazi iddiları, həm də Rusiyayönümlü olduqları üçün gürcü cəmiyyətində onlara qarşı münasibət olduqca neqativdir. İndi ermənilərin burada etnik azərbaycanlılarla gürcülər arasında qarşıdurma yaratmaq niyyəti onlara qarşı nifrəti daha da artırır.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan ordu amilini Qarabağ çözümündə ön plana çıxarır...

**Dağlıq Qarabağ münaqişəsi ətrafında işğalçı Ermənistanın son addımları məsələnin dinc müstəvidə həllini əngəlləməkdə davam edir. Xüsusən də separatçı rejim rəhbərinin Şuşada təşkil edilən "andiçmə" mərasimi Ermənistanın sülh yolundan uzaq qaçdığını çox aydın şəkildə nümayiş etdirir.**

Hadisələrin bu səpkidə inkişafı isə əraziləri işğal altında qalmaqda davam edən Azərbaycanı təbii olaraq ciddi surətdə narazı salır. Bütün bunlar fonunda rəsmi Bakı Qarabağ konfliktini güc müstəvisində həll etməkdən başqa çıxış yolunun qalmadığına dair xəbərdarlıqlarını artırır, düşmənə, onun havadarlarına açıq mesajlar verir.

Qeyd edilən xüsusda son dövrlərdə bir neçə məqam ayrıca diqqət cəlb edir. Bunlardan biri Prezident İlham Əliyevin Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışında çıxışı zamanı səsləndirdiyi fikirlərdir. Dövlət başçısı burada ordumuzla bağlı maraqlı xəbərdarlıqlar etdi:"Aprel döyüşləri və uğurlu Naxçıvan əməliyyatı göstərdi ki, Azərbaycan ordusu istənilən vəzifəni icra edə bilər". Bunun ardınca diqqət çəkən daha bir məqam Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Azərbaycan ordusunun rəhbər heyəti ilə xidməti müşavirədə dedikləri oldu. Nazir bildirib ki, şəxsi heyət torpaqlarımızın azad olunması məqsədilə düşmənə bütün istiqamətlərdə sarsıdıcı zərbələr endirməyə hazır olmalıdır:"Düşmən tərəfi anlamalıdır ki, bu dəfə görüləcək tədbirlər 2016-cı ilin aprelindən tam fərqli olacaq, vurulacaq zərər isə ümumilikdə onun siyasi, iqtisadi və hərbi tənəzzülünə gətirib çıxaracaq". Bundan başqa, müdafiə naziri diqqətə çatdırıb ki, Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində bu gün Azərbaycan ordusunun hərbi-texniki potensialı xeyli yüksəlib:"Bölmələrimizin Türkiyə, Fransa, İspaniya, İtaliya, İsrail, Rusiya, Belarus və hərbi sənayesi inkişaf etmiş digər ölkələrdən müasir silah və hərbi texnikalarla mütəmadi olaraq təchiz edilməsi ordumuzun maddi-texniki təminat baxımından düşməndən xeyli üstün olduğunu nümayiş etdirir". Nazir müasir texniki vasitələrin tətbiqi ilə düşmən müdafiəsinin dərinliyində aktiv kəşfiyyat fəaliyyətinin davam etdirilməsi, döyüş növbətçiliyinin aparılması şəraitinin təkmilləşdirilməsi, şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi, döyüş və səfərbərlik hazırlığının yüksəldilməsi, hərbi qulluqçuların tibbi təminatı və bir sıra digər məsələlərlə bağlı vəzifəli şəxslərə konkret göstərişlər verib.

Beləliklə, bu fikirlərdən aydın görünür ki, Azərbaycan ordu amilini Qarabağ məsələsinin həllində ön plana çıxarır. Yaxın tezlikdə münaqişənin çözümü ilə bağlı müvafiq addımlar atılmasa, məhz güc faktoru burada öz sözünü deməli olacaq. Bunu Moskva Siyasi və Hərbi Təhlillər Mərkəzinin direktor müavini, hərbi ekspert Aleksandr Xramçixin də istisna etmir. O bildirib ki, ümumilikdə Azərbaycan və Ermənistan arasında müharibə təhlükəsi həmişə, eləcə də bu gün var:"Mən həmişə demişəm ki, bir gün nəsə bir şey mütləq olacaq. Bundan əlavə, bəli, hərbi təlimlər örtüyü altında müharibəyə başlamaq həqiqətən də bəzən çox rahat olur. Lakin hər iki tərəf bir-birinin hərbi təlimləri haqqında əvvəlcədən öyrəndiyi üçün bu özlüyündə rəqibə xəbərdarlıq edir. Lakin indiki halda Azərbaycan burada daha çox seçilir və onun səbri tükənmiş kimi görünür". Xramçixin qeyd edib ki, bu fonda Bakı məsələnin güc yolu ilə həllinə start verə bilər və bunun üçün Azərbaycan bütün resurslara sahibdir:"Burada həm də beynəlxalq şəraiti nəzərə almaq lazımdır. Məsələn, Rusiyanın proseslərə baxışı indi xeyli dəyişib və bunu Azərbaycanda da yaxşı sezirlər". Ümumiyyətlə, düşmənə də yaxşı bəllidir ki, Bakı əlverişli şərtlər yetişən kimi masa üzərindəki hərb variantını həyata keçirəcək. Analitiklər hesab edir ki, Azərbaycan artıq bu şəraiti formalaşdırıb. İndi Azərbaycanın Qarabağ münaqişəsini güc yolu ilə həll etməsinə dünya, o cümlədən Rusiya hansısa ciddi reaksiya verməyəcək. Ermənistanın "Past" nəşri də yazır ki, bütün bunlar İrəvan üçün böyük təhlükə olduğu halda, Azərbaycan vəziyyətdən maksimal dərəcədə öz lehinə faydalanmağı düşünür:"Rusiya ilə Ermənistan arasında münasibətlərin pisləşməsi Qarabağ münaqişəsi ətrafında duruma getdikcə daha çox təsir edir. Azərbaycanın artan hərbi ritorikasından bunu görmək olar. Üstəlik, Rusiya ilə Ermənistan arasında olanlar iqtisadi ilə yanaşı, həm də siyasi bir komponentə malikdir. Eyni zamanda bu, ümumi dövlətlərarası münasibətlərin yalnız bir tərəfidir. Əslində, son iki il ərzində Ermənistan-Rusiya münasibətləri, yumşaq desək, olduqca qeyri-müəyyəndir. Fakt budur ki, rus tərəfdaşları tərəfindən Ermənistan hakimiyyətinə inamsızlıq artır və qarşılıqlı münasibətlər getdikcə mürəkkəbləşir. Əvvəlcə yeni hakimiyyət Rusiya ilə gözəl tərəfdaşlıq münasibətlərinin olduğuna inandırmağa çalışırdısa, üstəlik, Paşinyan da Putinlə dost münasibətləri olduğunu göstərmək istəyirdisə, indi həm xarici işlər naziri Zöhrab Mnatsakanyan, həm də baş nazir Nikol Paşinyan ciddi problemlərin olduğunu etiraf edir. Bunlar "işgüzar" kimi təqdim olunur, ancaq Paşinyanın "hər şey normaldır" kimi təqdim etməyə çalışdığı şəkildə deyil, daha mürəkkəb olduğu açıq-aydın görünür, problemlər etiraf olmadan da açıqdır, bunu bir sıra hadisələr də sübut edir. Hətta 2019-cu ilin oktyabrında, İrəvanda Ali Avrasiya İqtisadi Şurasının iclası çərçivəsində Putinin bütün "nüansları" ilə səfəri, o cümlədən Robert Köçəryanın həyat yoldaşı və oğlu ilə görüşü, Paşinyan tərəfindən təkrarən yola salınması faktı ilə və digər səbəblər bir çox şeydən xəbər verir. Bu yaxınlarda Rusiyanın xarici işlər naziri Sergey Lavrov Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlarla əlaqədar bir sıra açıqlamalar verdi. Bir həftə əvvəl də Lavrovun Mnatsakanyanla telefon danışığı oldu, rəsmi məlumata görə, onlar koronavirusla mübarizə və Qarabağ münaqişəsinin həlli yollarını müzakirə edib. Elə həmin gün mediada Ermənistanın ikinci prezidenti Robert Köçəryana qarşı siyasi təqib məsələsinin telefon danışığının müzakirə mövzusu olması barədə məlumatlar yayıldı. Xarici İşlər Nazirliyinin mətbuat katibi bu məlumatı təkzib etsə də, telefon danışığının hakim Anna Danibekyanın Köçəryanın qətimkan tədbirini dəyişdirmək barədə vəsatətini ləğv etməsindən ertəsi gün baş verməsi diqqət çəkir.

Bir sözlə, Rusiya rəsmilərinin Ermənistan hakimiyyət orqanlarının, xüsusən Nikol Paşinyanın hərəkətlərinə münasibətini tədricən diplomatik "mesajlardan" birbaşa, üzbəüz "danışıqlar" vəziyyətinə keçməsi halı baş verir. Ermənistan-Rusiya münasibətlərindəki boşluqlar getdikcə daha çox rəng alır, bunu isə heç rus tərəfi də artıq gizlətmir. Rusiya mediasında getdikcə daha sərt yazıların ortaya çıxması təsadüfi deyil ki, bu da Paşinyan və komandasının yaxın ətrafına sətiraltı və "sətirüstü" çox mənfi münasibəti açıq şəkildə göstərir. Bunun davamının Qarabağ müstəvisində olacağına da artıq şübhə yeri qalmır". Hesab edilir ki, bu gedişlə Rusiya Qarabağ kartı ilə də Paşinyan iqtidarının mövqeyini sarsıtmaq niyyətini həyata keçirə bilər. Bu isə zəbt edilmiş ərazilərin daha bir hissəsinin Azərbaycanın nəzarəti altına qayıtması ilə nəticələnəcək. Elə "1in.am" saytı da yazır ki, son günlər Rusiyanın Ermənistana təzyiqləri güclü şəkildə artıb: "Özü də bu təzyiq ən müxtəlif sahələri əhatə edir. Bir sıra hallarda isə diplomatik normaları belə aşır. Mahiyyət etibarilə Ermənistanın hakimiyyət orqanlarına Kreml barmaq silkələyir. Bu təzyiqlərə cavab olaraq Paşinyan iqtidarı daha çarəsiz duruma düşür. Bu durumda Rusiyanın yeni Qarabağ savaşını əngəlləməsini gözləmək sadəlövhlük olardı".

Bütün bu qeyd edilənlər fonunda indi Azərbaycanın da yeni savaş mesajları Ermənistanı daha da əndişələndirir. Düşmən də görür ki, bu gün Azərbaycan ordusu hərbi potensialına, döyüş qabiliyyətinə, təchizatına görə düşməndən dəfələrlə üstün mövqedədir. Azərbaycan ordusunun malik olduğu silah və texnikanın əsas hissəsi tam şəkildə yenilənib, şəxsi heyət ən müasir silahlarla təchiz olunub. Məhz bunun nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələrinin adı dünyanın güclü, müasir standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları sırasında çəkilir. Bundan başqa, ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar yaradır. Təsadüfi deyil ki, indi Azərbaycanda istehsal olunan silah-sursat növləri öz göstəricilərinə görə fərqlənir. Elə bu fonda da güclü Azərbaycan ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir. Azərbaycanda yüksək döyüş qabiliyyətli, hərtərəfli təchiz olunmuş ordunun formalaşdırılması istiqamətində atılan addımlardan fərqli olaraq, Ermənistanda əks proses müşahidə edilir. Bu durumda ordumuzun qüdrətlənməsi, Qarabağ problemi müharibə yolu ilə həll ediləcəyi təqdirdə, sözsüz ki, ölkəmizin üstünlüyünü artırır. Erməni tərəfini də qorxudan elə budur. Düşmən yaxşı bilir ki, Azərbaycan Qarabağ məsələsində ordunu hərəkətə gətirsə, Ermənistanın tam məğlubiyyəti qaçılmazdır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ukrayna deputatı ilə ermənilərin ödənişli "genosid sövdələşməsi" - "Xalqın xidmətçisi" ya erməni qulbeçəsi Dmitruk...

**Ukrayna dövləti tərəfindən qondarma "erməni soyqırım"nın rəsmən tanınmadığı və "soyqırı"mı tanıyanlara qarşı sərt cəza tədbirləri görüləcəyi ilə bağlı qərar qəbul edildiyi məlumdur. Hətta bu yaxınlarda Ukrayna rəsmiləri açıqlama verərək "erməni genosidi"ni tanımadıqlarını da bəyan etmişdilər.**

## *Qasım Hacıyev: "Dmitrukun özü nökər xislətli bir adamdır və pul qarşılığında ermənilərə nökərçilik edir"*

Məlum olduğu kimi Ukrayna dövləti adından verilən rəsmi bəyanata bu ölkənin daxili işlər naziri milliyyətcə erməni olan Arsen Avakov öz tvitter hesabında etirazını bildirmişdi.

Bildiyimiz kimi Avakov və onun kimiləri qondarma "erməni soyqırımı"nın Ukraynada tanınmasına nail olmaq üçün hər cür məkirli tədbirlərə əl atırlar. Onların xüsusi muzdlu deputatlar saxladığı və ödəniş müqabilində onları "danışdırdığı" da gizlin deyil. Ukraynanın "Xalqın xidmətçisi" partiyasının xalq deputatı Artem Dmitruk da onlardan biridir. Onun deputatları qondarma "erməni soyqırımı"nın tanınması ilə bağlı petisiyanı imzalamağa çağırması dediklərimizi sübut edən faktdır.

Erməni mediasının yazdığına görə, "Xalqın xidmətçisi" partiyasının xalq deputatı olan Artem Dmitruk "Mons Pius" un rəhbəri Suren Petrosyanın "1915-1922-ci illərdə Osmanlı İmperiyasındakı "erməni soyqırımı"nı tanımaq təşəbbüsünü dəstəkləyib. Erməni mediası yazır ki, A.Dmitruk bu barədə öz facebook səhifəsində yazıb. A.Dmitruk ermənilərin saxta təbliğatın uyaraq və erməni lobissinin ona verdiyi muzda şirnikərək həqiqətə uyğun olmayan fikirlər səsləndirib. Guya ki, "erməni soyqırımı" dünyanın bir çox ölkələri və beynəlxalq təşkilatlar tərəfindən "tanınır". "Ölkəmizin niyə kənarda olduğunu başa düşmürəm" deyə bildirən erməni qulbeçəsi öz müraciətində bunun Ukraynadakı erməni diasporunun nümayəndələri üçün də əhəmiyyətini vurğulayıb.

Qeyd edək ki, bu şəxs Ermənistan Respublikası ilə parlamentlərarası əlaqələr qrupunun rəhbəridir.

Qeyd edilənə görə, "Mons Pius" ictimai təşkilatının rəhbəri Suren Petrosyan isə Ukraynanın qondarma "erməni soyqırımı"nı tanımaq üçün vəsadət qaldırıb və "sənədi" Ukrayna Respublikasının Prezidenti Vladimir Zelenskiyə təqdim edib və petisiya Ukrayna Prezidentinin saytında yerləşdirilib.




*"Ukrayna parlamentinin deputatı da ermənilərin muzd, ödəniş müqabilində tutduğu adamdır və ona görə də həqiqətə uyğun olmayan fikirlər söyləyib"*

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnsititutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, Dmitrukun bu mövqeyi qətiyyən Ukrayna dövlətinin və xalqının mövqeyini əks etdirə bilməz. Q.Hacıyevin sözlərinə görə, bu gün həm Ukraynadakı erməni diaspor təşkilatları, həm də bu ölkənin daxili işlər naziri bütün cəhdlərini qondarma "erməni soyqırı"mın tanıdılmasına yönəldib. O, hesab edir ki, Dmitruku erməni lobbisi kifayət qədər maliyyələşirərək ondan muzdlu erməni müdafiəçisi kimi istifadə edirlər. Deputatın həmçinin Avakovun təsiri altında olduğunu deyən Q.Hacıyevin sözlərinə görə, görünür, Avakov onu nələrləsə şantaj edərək danışmağa məcbur edir. "Bilirsiz, dünya xalqları dostluq əlaqələri qurmaqla, iqtisadi-siyasi əlaqələri genişləndirməklə məşğul olarkən onların içində iyrənc erməni siyasəti, təbliğatı da özünə yer tuta bilir. Ermənilərin xisləti kimlərsə zərər vurmaq, kimlərisə narahat etməkdir. Əslinə qalsa, bu gün hansısa bir şəxs erməniپərəst mövqe nümayiş etdirirsə, o insan birmənalı olaraq ermənilər tərəfindən satın alınan şəxsdir. Ukrayna parlamentinin deputatı da ermənilərin muzd, ödəniş müqabilində tutduğu adamdır və ona görə də həqiqətəuyğun olmayan fikirlər söyləyib. Başqa dövlətlərdən aldıqları ianələri belə məqsədlərə xərcləməyi ermənilər artıq bir vacib işə çeviriblər. Əgər parlamentin üzvü erməni mənşəlidirsə, onun ermənilərin iyrənc siyasətini təbliğ etməsi aydındır. Çünki erməni hər yerdə ermənidir. Dmitrukun mənşəyinin şübhəli olması variantı da istisna deyil. Amma bütövlükdə, görünən odur ki, o muzdludur və pul gücünə danışır. Çünki o, erməni mənşəli deyisə bu başqa cür də ola bilməz. Bilirsiz ki, bəzi Latın Amerikası ölkələri Ermənistanın harada yerləşdiyini bilmirlər, amma pul müqabilində qondarma "erməni soyqırımı"nı qəbul ediblər. Hesab edirəm ki, Dmitrukun özü nökər xislətli bir adamdır və pul qarşılığında ermənilərə nökərçilik edir. Yaxşı bilirik ki, dünya dövlətlərinin böyük əksəriyyəti türk mənşəlidir. Bu dövlətləri qədim dövrlərdə dünyaya yayılmış türklər yaradıblar. Onların adını çəkməyə ehtiyac yoxdur. Dünya tarixçiləri yaxşı bilir ki, Ukrayna əhalisinin bəlkə də 80 faizindən çoxunun mənşəyi türksoyludur. Qalan hissəsi isə slavyanlarla, ruslarla və Avropa xalqları ilə qarışıblar. Ermənilər Ukraynada çox azdır. Orada erməni diasporu elə də güclü deyil. Amma burada bir müəmmalı məsələ var. Ukrayna kimi böyük, güclü hərbi sənayesi olan, iqtisadi cəhətdən normal inkişaf etmiş bir respublikada daxili işlər nazirinin erməni olmasının özü çox şübhəli görünür. Heç şübhə etmirəm ki, Ukraynanın daxilində baş verən neqativ hadisələrdə erməni millətindən olan daxili işlər nazirin rolu var. Bu dəfələrlə deyilib, yazılıb. Son zamanlar bu ölkədə bəzi proseslər baş verir, küçələrdə atışma hadisələri olur. Bunun əksəriyyətinin də Avakovla əlaqəsi var. Bilinmir ki, general rütbəsinə qədər gəlib çıxan bir adamı Ukrayna dövlətinə kim yerləşdirib, necə yerləşdirib, o hansı mafiyanın üzvüdür. Bundan sonra da Ukraynada onun fitvası ilə çox pis hadisələrin baş verəcəyinə şübhə etmirəm. Ona görə ki, Avakovun təxribatçı dəstəsi iş başındadır və onlar neqativ işlərlə məşğuldurlar. Ukrayna parlamentinin deputatının da Avakovla bağlılığı və onunla eyni mafiyanın üzvü olduğu şübhə doğurmur. Bu təxribatçı qrup türklərin, Ukrayna xalqının və dövlətinin əleyhinə işləyirlər. Azərbaycan Ukrayna, Ukrayna Türkiyə əlaqələrini pozmağa çalışan bu mafiya üzləri ilk növbədə Ukraynanın dövlət maraqlarına zərbə vururlar".

Q.Hacıyev hesab edir ki, Ukrayna hökuməti erməni təxribatına uymayacaq və sözügedən petisiya yazıldığı kimi kağız üzərində qalacaq.

***İradə SARIYEVA***

**Koronavirusun hələ də yayılmaqda davam etməsinə baxmayaraq, dünya ölkələri, o cümlədən Azərbaycanda yumşaldıcı tədbirlər həyata keçirilir. Bu fonda diqqət çəkən məqamlardan biri iqtisadiyyatın qlobal miqyasda tədricən canlanmasıdır. Elə bu durum da neftə olan tələbin yenidən artması ilə müşahidə edilir.**

# Azərbaycanın neft qiymətləri ilə bağlı strategiyası özünü doğruldur



Hesab edilir ki, iyun ayından dünyanın aparıcı iqtisadiyyata malik bütün ölkələrində karantin rejimi bundan sonra da nəzərəçarpacaq dərəcədə yumşaldılacaq, insanların hərəkətinə qoyulmuş məhdudiyyətlər aradan qaldırılacaq. Bu isə nəqliyyat xidmətlərinə və dolayısı ilə yanacağa tələbatı artıracaq. Odur ki, analitiklər 2020-ci ilin ikinci yarısından neftin qiymətinin 50-60 dollara yüksələcəyini proqnozlaşdırır. Ekspertlərin fikrincə, OPEC+ sazişi çərçivəsində hasilatı məhdudlaşdıran yeni razılaşmaların olmasının gözlənilməsi də neft qiymətlərini bu il yüksəldəcək daha bir vacib addım olacaq. Artıq bu gözləntilər fonunda neft qiymətlərində artım qeydə alınır. Elə Azərbaycan neftinin də qiyməti bahalaşır. Belə ki, "Azeri Light" markalı neftin bir barreli indi 37 dollardan baha satılır. Proseslər indiki qaydada davam etsə, qiymətin elə iyun ayında 40 dollarlıq həddi keçməsi gözlənilir. Gələn ay ərzində isə neft qiymətlərinin Azərbaycan dövlət büdcəsində nəzərdə tutulan həddə, yəni 55 dollara çatması proqnozlaşdırılır. Bunu tətikləyəcək daha bir amil isə okeanın o tayında baş verənlərdir. Çünki ABŞ neft sənayesinin faktiki çöküşü də enerji bazarında artıq fərqli bir durum yaradır.

Məsələ burasındadır ki, Amerikada neft hasilatının rekord həcmdə azalması müşahidə olinur. Ölkədə neft-qaz qazma qurğularının sayı tarixi minimuma enib, şirkətlər isə kütləvi şəkildə müflisləşir və işlərini dayandırırlar. "ShaleProfile Analytics" şirkətinin proqnozuna görə, ABŞ bu gedişlə şist neft hasilatının üçdə birini itirəcək. Böhran sənayenin əsas problemlərindən birini daha da kəskinləşdirib, bu da texnologiyanın xüsusiyyətlərinə görə quyuların sürətlə tükənməsidir. Belə ki, qazma işləri başa çatdıqdan az sonra şist yataqlarında hasilat aşağı düşür və əvvəlki məhsuldarlıq itir. Bunu kompensasiya etmək üçün daim yeni quyular qazmaq lazımdır. Amma hazırkı vəziyyətdə bu, maliyyə çatışmazlığı üzündən sadəcə mümkün deyil. Məhz bu səbəbdən şirkətlər kütləvi şəkildə müflisləşir. "Haynes & Boone" şirkətinin məlumatına görə, ilin əvvəlindən etibarən ümumi borcu 15 milyard dollar olan 18 hasilatçı müflisləşmə prosedurunu başlayıb. Onların sırasında ən böyük şist şirkətlərindən biri "Whiting Petroleum", eləcə də "California Resources" və "Chesapeake Energy" kimi nəhənglər də var. Mayın sonunda "Unit" şirkəti də iflas işi üzrə məhkəməyə sənədlərini təqdim edib. Dallas Federal Ehtiyat Bankının araşdırmasına görə, rentabellik üçün neftin bir barrelə görə orta hesabla qiyməti 49 dollar olmalıdır. Qurumun proqnozlarına görə, 40 dollar qiymətlə il ərzində istehsalçıların yalnız 15 faizi biznesdə qala biləcək. Nəticədə, analitiklərin dəyərləndirmələrinə görə, ABŞ-da şist hasilatı sutkada beş milyon barreldən aşağı düşə bilər. Halbuki, 2019-cu ildə amerikalılar neft hasilatında irəli çıxaraq Rusiya və Səudiyyə Ərəbistanını qabaqlayıb. ABŞ 70 il ərzində ilk dəfə olaraq "qara qızıl"ın xalis ixracatçısına çevrilib. Ölkədə gündəlik 10 milyon barreldən artıq neft hasil edilirdi. Amma bu göstərici artıq yarıya kimi azalacaq. "The Wall Street Journal" nəşrinin məlumatına görə, ölkənin 15 ən böyük şist şirkəti yeni yataqların işlənməsi üçün nəzərdə tutulmuş büdcələrini orta hesabla 48 faiz ixtisar ediblər.

"Emirates NBD" ticarət bazarlarının analitiki Edvard Bell məsələ ilə bağlı bildirib: "Əminliklə demək olar ki, Amerika bu il neft hasilatında liderliyini itirəcək. Və bu, ehtimal ki, gözlədiyimizdən daha tez baş verəcək. Koronavirus pandemiyası neft sənayesini dağıdıb, benzinə, aviasiya və dizel yanacağına tələbatın sürətlə və görünməmiş bir şəkildə azalmasına səbəb olub. Buna Rusiya ilə Səudiyyə Ərəbistanı arasındakı "epik qiymət müharibəsini" və Amerika neft şirkətlərinin balanslarındakı böyük borcları əlavə edin. Üstəlik, bütün Amerika şistçiləri onları satın ala biləcək digər ölkələrin şirkətləri üçün asan yem ola bilər. Əsas təhlükə Çinin canlanan iqtisadiyyatı və onun ucuzlaşan xarici aktivlərə olan marağı ilə bağlıdır. Amerika neft yataqlarının orta qiyməti iki dəfə azalıb: 42 min dollardan 20 min dollara qədər. Vaşinqton isə Çinin onun enerji sektoruna müdaxiləsindən ehtiyatlanır". Məhz bu vəziyyətdə ABŞ neft qiymətlərinin artıq ilin ikinci yarısında 50 dollarlıq həddi keçməsi üçün səylərini, Rusiya ilə Səudiyyə Ərəbistanı arasında olan dialoqlarını daha da intensivləşdirib. Eyni zamanda, yuxarıda qeyd olunduğu kimi, karantindən tədrici çıxış da neft qiymətlərini yüksəldir. Məsələn, ən böyük hasilatçı olan Çində neftə tələbat, praktiki olaraq, böhrandan əvvəlki səviyyələrə qayıdıb və hazırda sutkada 13 milyon barrel təşkil edir.

Bu, 2019-cu ilin mayına nisbətdə cəmi 400 min barrel azdır. Avropada da neftə tələb artır. Bu durumda neft qiymətlərinin sürətli yüksəlişi də qaçılmaz saylır. Qeyd olunduğu kimi, ilin ikinci yarısında qiymətlərin 50 dollarlıq həddi keçməsi gözlənir. Ümumiyyətlə, il ərzində qiymətlərin 50-60 dollarlıq bir intervalda dəyişməsi gözlənir. Belə vəziyyət, bir çox hasilatçılar kimi, Azərbaycan üçün də məqbuldur. Hesab edilir ki, hadisələrin bu tempdə inkişafı Azərbaycanın neft gəlirlərinin ilin əvvəlində nəzərdə tutulan həddə və ya ona yaxın olmasını şərtləndirəcək.

***Ramil QULİYEV***

# Ekspertlər Azərbaycanda qaydaların yumşaldılmasını pandemiyanın artım dinamikasına uyğun saymır - ölkə fəlakət həddində...

**Rəsmi məlumata görə, Azərbaycanda koronavirusa yoluxanların sayı 5 mini ötüb. Gizlin deyil ki, ölkəmizdə qüvvədə olan sərt karantin rejiminin mərhələli şəkildə yumşaldılması prosesindən sonra koronavirus infeksiyasına yoluxanların sayı infeksiyadan müalicə olunaraq sağalanların sayını üstələyib.**

Nazirlər Kabineti yanında Operativ Qərargah məlumatına görə, hazırkı dövrədək ölkəmizdə 5 246 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 3 327 nəfər müalicə olunaraq sağalıb, ümimilikdə 61 nəfər vəfat edib.

Son həftələr ölkəmizdə koronavirus infeksiyasına yoluxanların sayının artması ekspertləri də, ictimiyyəti də ciddi narahat edir. Karantin qaydaları yumşaldıqdan sonra epidemiyaya yoluxanlarının sayının artmasının böyük fəlakətə səbəb ola biləcəyini istisna etməyən ekspertlər hesab edirlər ki, yoluxanların sayının artması yenidən karantin rejiminin sərtləşdirilməsinə ciddi əsaslar verir.




***İlqar Hüseynli:** "...Karantin rejimini sərt formada davam etdirmək daha doğru olardı"*

***Şakir Ağayev:** "İnsanların məsuliyyətsizliyi davam edərsə, dövlətin sərt karantin rejiminə keçəcəyi gözləniləndir"*

Sosial sahə üzrə tanınmış ekspert İlqar Hüseynli bizimlə söhbətində bildirdi ki, mövcud situasiya çox mübahisəli bir vəziyyətdədir. "Belə götürdükdə, dünyadakı tendensiyalar açılımlara doğru gedir. Bir neçə dövlət artıq iyunun 1-dən hava sərhəddlərinin açılması ilə bağlı qərar verib. Baxmayaraq ki, həmin ölkələrdə hələ də pandemiyanın kökü tam olaraq kəsilməyib. Amma burada insanların məşğulluğunun təmin edilməsi kimi əhəmiyyətli məsələ də var. Eyni zamanda dövlətin və insanların maliyə imkanlarının tükəndiyi bir vaxtda bu prosesə gedilməlidir. Burada parodoksal bir vəziyyət yaranıb. İş yerlərinin, ticarət obyektlərinin, kafe-restoranların, ictimai iaşə yerlərinin açılması prosesi baş verib və insanlar da məcburdur ki, pul qazanıb ailəsini saxlasın. Bu yumşalmaya məcburiyyətdən yaranan bir proses kimi yanaşmaq olar. Başqa bir məsələdə var ki, insanların maddi təminatı yaradılmış olsaydı karantin rejimini daha sərt formada davam etdirmək daha doğru olardı".

İ.Hüseynlinin sözlərinə görə, ölkəmizdə karantin rejimin yumşaldılması vətəndaşlarımızda artıq koronavirusun bitməsi ilə bağlı bir arxayınçılıq yaradıb. "Bu mənada vətəndaşlar sanitar-gigiyena normalarına riayət etmək istəmirlər. Məsələnin problemi tərəfi bundadır. Açılımlar var, proseslər sadələşdirilib, insanların əvvəlki həyat tərzinə qayıdışı ilə bağlı yumşalmalar mövcuddur, amma insanlar da buna adekvat olaraq karantin qaydalarına əməl etməlidirlər"- deyə İ.Hüseynli vurğuladı.

"Novoe vremya" qəzetinin baş redaktoru, tanınmış siyasi icmalçı Şakir Ağayevin fikrincə, bu olduqca aktual məsələdir və proses daha kəskin xarakter alarsa sərt karantin rejiminin bərpası qaçılmazdır. "Dünyada pandemiyanın kəskin artdığı dövrdə Azərbaycanda həyata keçirilən qabaqlayıcı tədbirlər və sərt karantin rejiminin formalaşdırılması nəticəsində virus ölkəmizdə çox aşağı tempdə idi, iki rəqəmli həddən keçmirdi. Çox təəssüflər olsun ki, yumşalma prosesi tədricən başlayandan sonra virusun yayılması üç rəqəmli həddə çatıb. Dünənki məlumata diqqət yetirsək görərik ki, yoluxanların sayı 250 nəfərdən artıqdır. Bu təbii ki, çox məyus edici haldır. Əvvəlcədən də deyilmişdi ki, qoyulan qaydalara əməl edilməzsə bu xəstəliyə daha çox insan yoluxa, nəticə daha kəskin ola bilər. Düzdür, sağalanların da sayı çoxalır. Xəstələrin sayının hazırda artmasını indiki dövrlə müqayisədə əvvəllər testin az aparılması ilə əlaqələndiririrlər. İndi isə test çox aparılır. Amma məsələnin hansı formada olmasından asılı olmayaraq virusa tutulanların sayının 5 mini keçməyi ürəkaçan məsələ deyil. İlk növbədə buna səbəb insanların pandemiyanı ciddi qəbul etməməsi və xəstəliyə məsuliyyətsiz yanaşmasıdır. Bilirsiz, dövlətin karantin rejimini mərhələli şəkildə yumşaltmasının həm sosial-iqtisadi, maliyə, həm də mənəvi-psixoloji tərəfləri var. Təbii ki, üç-dörd ay insanları evdə saxlamaq insanların və dövlətin özü üçün sosial-iqtisadi, maliyə cəhətdən çox çətin idi. Qeyd etdiyim kimi burada insanların mənəvi-psixoloji məsələsi də vardı. Buna görə də, Azərbaycan dövlətinin həyata keçirdiyi qabaqlayıcı tədbirlər nəticəsində xəstəliyin tempinin aşağı düşməsi prosesini təəssüf ki, insanlar düzgün qiymətləndirə bilmədilər. İnsanların xeyli bir hissəsi dövlətin qoyduğu qaydalara tam riayət etmir və da belə bir vəziyyətə gətib çıxarıb. Təbii ki, vətəndaşların məsuliyyətsizliyi dövləti yenidən karantin rejimini sərtləşdirməyə vadar edə bilər. İnsanların məsuliyyətsizliyi davam edərsə, dövlətin sərt karantin rejiminə keçəcəyi gözləniləndir. Hesab edirəm ki, aidiyyatı qurumlar prosesə nəzarət edərək hesablamalar aparır və buna uyğun da addımlar atılacaq"-deyə Ş.Ağayev bildirdi.

Ekspert qeyd etdi ki, əvvəllər gün ərzində 1000 test aparılırdısa indi 4 mindən artıq test aparılır və bu da xəstələrinin sayının üzə çıxmasına səbəb olur. Ş.Ağayevin fikrincə, vətəndaşlar yumşalma prosesindən sui-istifadə etməməli və virusa ciddi yanaşmalıdırlar.

***İradə SARIYEVA***

# Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından istifadənin müasir vəziyyəti

**Qurani-Kərimdə göstərilir ki, Allah-taala yer üzünə nemətləri ona görə məhdud göndərdi ki, adamlar onların bölgüsündə ədalətli olsunlar. Ümumiyyətlə, nemətlərlə bağlı nə varsa, hamısı nisbi məhdudluğa malikdir. Hətta hüdudsuz görünən hava, dağ, dərə və çox yüksəklikdə havaya olan tələbatın ödənilməsi də məhdudluğa malikdir.**

Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası çox zəngin yeraltı və yerüstü təbii ehtiyatlara malikdir. Ona görə də bu məhdud təbii ehtiyatlardan qənaətlə istifadə olunması daim diqqət mərkəzində durmalıdır.

Su ehtiyatlarından söhbət gedərkən qeyd etmək lazımdır ki, su həyatdır, su dirilikdir, bolluqdur, bərəkətdir, firavanlıqdır, nəhayət, sağlamlıqdır.

Allahın da qüdrəti sudadır. Şərqdə deyirlər ki, get dərdini suya söylə, çətinliyə düşəndə duru, axar suya bax. Ona görə də bütün bu deyilənləri dağlarımızdan, çaylarımızdan süzülən, axıb gələn sular haqqında deyilib.

Respublikanın su ehtiyatlarının əsas hissəsini çay suları təşkil edir. Azərbaycanda 33665 km uzunluğunda 8360 çay var. Bu çaylar içərisində Kür və Araz çayının mühüm rolu var.

Naxçıvan MR ərazisindən keçən Araz çayı öz başlanğıcını Türkiyədən - Bingöl silsiləsindən 2990 metrə hündürlükdən götürüb Sabirabad rayonu ərazisində Kürə tökülür. Elə buna görə də 1072 km uzunluğunda olan Araz çayı Kürün qolu adlanır. Ümumiyyətlə götürsək, respublikanın həyatında bütün sahələrdə Araz çayı mühüm rol oynayır.

Çaylar üzərində tikilmiş elektrik stansiyaları respublikanın enerji təminatında əsas rol oynayır. Başqa çaylarla yanaşı, Araz və Kür çayları üzərində tikilən stansiyalar enerji təminatı və su mənbəyi rolunu oynamaqla iqtisadi səmərəyə malikdir.

Qeyd edək ki, Naxçıvanda yağıntıların azlığı kənd təsərrüfatı sahələrinin normal inkişafını təmin etmir. Buna görə də əkinə yararlı torpaqların çox hissəsi suvarılır. Bütün əkin sahələrinin 80 faizdən çoxunu suvarılan torpaqlar təşkil edir.

Naxçıvanın ərazisi su ehtiyatları ilə olduqca qeyri-bərabər təmin olunub. Gilan çayından şərqdə yerləşən ərazilərdə su təminatı kifayət qədər, qərbdə azdır, Arazboyu düzənliklər isə, demək olar ki, sudan məhrumdur.

Naxçıvan MR ərazisinin bütün çayları Araz çayı hövzəsinə aid olub, ümumi sayı 400-ə çatır. Bunlardan ən böyükləri Araz, Naxçıvan, Əlincə, Gilan və Ordubad çaylarıdır. Bunların da əsas qidasını qar, yeraltı və yağış suları təşkil edir. Çay sularının il ərzində paylanmasında da hiss ediləcək dərəcədə qeyri-bərabərlik müşahidə edilir.

Əsas problemlərdən biri də içməli su problemidir. Keçmişdə bulaqlardan başqa içməli su mənbələri kimi kəhrizlərdən istifadə edilirdi. Hazırda kəhriz sularından suvarmada istifadə edilir. Muxtar Respublikada tikilmiş bir çox iri və kiçik su anbarları burada su problemini qismən həll etsə də, kənd təsərrüfatının və əhalinin su təchizatı öz həllini gözləyir.

Naxçıvanın xalq təsərrüfatının gələcək inkişafı su problemlərinin həlli məsələləri ilə sıx bağlı olmaqla, suya olan tələbatın durmadan artdığı bir şəraitdə əlavə tədbirlərin axtarışı ilə bağlıdır. Ərazinin quraqlıq şəraitində yerləşməsinə baxmayaraq, su ehtiyatlarının həcmi bütün xalq təsərrüfatı tədbirlərini ödəyəcək səviyyədədir. Bunların il ərzində qeyri-bərabər paylanması yeni su anbarlarının tikilməsini tələb edir. Lakin su anbarları düzən yerlərdə yox, çayların yuxarı axınında, dar və dərin dərələrdə tikilməli və yaz-yay daşqın sularını tənzimləməlidir.

Çayların orta illik su ehtiyatı 1 milyard kubmetrdən artıqdır. Bunun 60 faizdən çoxu Şərqi Arpaçayın payına düşür. Naxçıvançayın illik su tutumu 160 milyon kubmetrə, Gilançayın isə 100 milyon kubmetrə yaxındır. Ərazidəki çaylar dağ çayları olduğundan, nəqliyyat üçün əlverişli deyildir. Lakin buna baxmayaraq, enerji ehtiyatı böyükdür və mühüm iqtisadi əhəmiyyətə malikdir. Hesablamalara görə,



Şərqi Arpaçay, Naxçıvançay, Gilan və Əlincə çaylarının ümumi enerji ehtiyatı 480 milyon kilovatt-saata çatmaqla, MR-in bütün çay hövzəsinə düşən enerji ehtiyatının 80 faizini təşkil edir. Bu çaylar üzərində gələcəkdə SES-lərin tikilməsi böyük əhəmiyyət kəsb etməlidir. Araz çayının Naxçıvan ərazisi hissəsinin iqtisadiyyatın yüksəldilməsindəki imkanları xüsusi olaraq nəzərə alınmalıdır. Naxçıvanda olan çayların illik axınının 75 faizdən çoxu kənd təsərrüfatında istifadə edilmir. MR-də su hövzələrinin yaradılması və su ehtiyatının toplanması vacib məsələlərdən biridir. Bu məsələnin həlli respublika ərazisində yaşıllığın artırılmasına, süni meşələrin sahəsinin genişləndirilməsinə imkan yarada bilər. MR-in quraqlıq zonada yerləşməsi və buxarlanmanın səth axımından üç dəfə çox olması su ehtiyatlarının qorunmasını və onlardan son dərəcə səmərəli istifadə olunmasını tələb edir.

MR-in sərvətlərindən biri də hələ qədim zamanlardan insanların sağlamlığının qorunmasında və təsərrüfat fəaliyyətində mühüm əhəmiyyət kəsb etmiş kəhrizlərdir. Kəhrizlərin adi bulaqlardan fərqi tərkibində minerallaşmanın azlığı, suyunun sutkalıq debitinin çoxluğu və ilin bütün fəsillərində eyni sərinlikdə olmasıdır. Məhz buna görə də qədim zamanlardan bu vaxta kimi insanların məskən saldıqları ərazilərdə kəhrizlərin suyundan daima istifadə olunub və olunmaqdadır. Yeri gəlmişkən deyək ki, respublikamızın ərazisində 4 mindən çox kəhriz var. Bunun 500-dən çoxu Naxçıvanda qeydə alınıb.

Kəhrizlərdən istifadə məsələsində respublikamızın iqtisadi zonaları içərisində Naxçıvan xüsusi yer tutur. Buradakı kəhrizlərdən hələ qədim zamanlarda Şərq ölkələrinə xas olan hidrotexniki qurğular vasitəsilə istifadə olunduğu özünü aydın göstərir. Hazırda Muxtar Respublikada olan 500-dən çox kəhrizin 400-ə qədəri fəaliyyətdədir. Bunlardan 200-ə qədəri Şərurda, 100-ə qədəri Babəkdə, 60-a qədəri Ordubadda, 40-ı isə Naxçıvan şəhəri daxil edilməklə, Culfa və Şahbuz rayonları ərazisindədir.

Naxçıvanda olan kəhrizlərdən istifadə etmək üçün 3800-ə yaxın hidrotexniki qurğu işlədilməklə, 142400 metrdən artıq yeraltı kanal çəkilib. Bu kanallardan axıdılan suyun ümumi sərfi saniyədə 2000 kubmetrə çatır. Hazırda Naxçıvan şəhərində fəaliyyətdə olan kəhrizlərin suyundan istifadə olunmasına baxmayaraq, suların bir hissəsi lazımsız axıdılır. Şəhər əhalisinin içməli suya olan tələbatı tam ödənilmir. Hesablamalar göstərir ki, faydasız axıdılan kəhriz suyunun itkisi aradan qaldırılarsa, Naxçıvan şəhəri əhalisinin içməli suya olan tələbatı ödənilməklə yanaşı, ildə 2000-2500 hektara yaxın sahəni suvarmaq olar.

Təcrübə göstərir ki, kəhriz suyu ilə suvarılan sahədə məhsuldarlıq xeyli artır. Bu, xüsusilə dənli bitkilərin suvarılmasında özünü daha aydın göstərir.

Kəhrizlərin bərpası, eyni zamanda, təbiətin mühafizəsində mühüm rol oynayan amillərdən biri kimi qiymətləndirilməlidir. Kəhrizlər mahiyyət etibarilə təbiətin qədim inciləri sayılır. Bunları qayğıkeşliklə qorumaq, istifadəsiz qalanlarını isə xalqın istifadəsinə vermək və təsərrüfat fəaliyyətində kəhrizlərin rolunu artırmaq qarşıda duran mühüm məsələlərdəndir.

Qeyd etmək lazımdır ki, su inqilabdan əvvəl Naxçıvan qəzasında daha ciddi məsələ idi. Hələ Sovet hakimiyyəti qurulanadək hazırlanmış bir məlumatda bu çətinlik daha dəqiq əsaslandırılır. Məlumatda göstərilir ki, Naxçıvan qəzasında su işi çətindir. Arpa çayını nəzərə almasaq, qalan çaylar azsuludur. Məsələn, Naxçıvan çayı 13117 desyatin suvarılan torpaqdan 8200, Cəhri çayı 2170 desyatindən 1214, Əlincə çayı 3088 desyatindən 1800, Vənənd və Gilan çayı 6957 desyatindən 5202 desyatin sahəni suvarırdısa, Arpa çayı 13103 desyatin yararlı əkin sahəsindən 12943 desyatin əkin sahəsini su ilə təchiz edirdi. Xok su dairəsi (Qarabağlar, Xok, Şahtaxtı, Qıvraq, Qabıllı və Yurtucu) 162 kəhriz və 88 çeşmə ilə hər il 3600 desyatin əkin sahəsindən ancaq 1185 desyatin sahəni suvarırdı.

Bu, Naxçıvanın təbii iqlim şəraiti ilə əlaqədardır. Coğrafi vəziyyəti və təbii şəraitinə görə Naxçıvan MR məhdud su ehtiyatına malikdir. Muxtar Respublikanın Naxçıvan çayından qərbə doğru olan hissəsində Arpaçay istisna edilərsə, demək olar ki, səth suları yox dərəcəsindədir. Şərq hissəsində isə çaylar çox olsa da (Naxçıvançay, Əlincəçay, Gilançay, Düylünçay, Quruçay, Vənəndçay, Əylisçay, Qaradərəçay, Qanzaçay, Gilidçay), bu çayların azsulu olması üzündən kənd təsərrüfatının suya olan tələbatı tam ödənilmir. MR-in cənub ərazisindən axan sərhəd Araz çayının yatağı əkin sahələrindən aşağı səviyyədə yerləşdiyinə görə onun suyundan suvarma işlərində son dərəcə az istifadə olunur.

Ümumiyyətlə, bütövlükdə götürdükdə su ehtiyatlarının artırılması təkcə içməli suya və təsərrüfat suyuna olan tələbatın ödənilməsi deyil, əkin sahələrinin su təchizatının yaxşılaşdırılması da vacibdir. Məlum olduğu kimi, ölkənin kənd təsərrüfatının əksər hissəsi suvarma və drenaj sistemindən asılıdır. Bu sistem onilliklər ərzində dəyişikliyə uğrayıb.

Muxtar Respublikada kənd təsərrüfatına yararlı torpaqların əsas həcmi düzənlik - aran rayonlarında yerləşir. Bu zonalar öz isti iqlimi, az atmosfer yağıntılarının olması ilə səciyyələnir. Yüksək və sabit məhsul götürmək üçün həmin sahələrdə irriqasiya-meliorasiya tədbirlərinin aparılması tələb olunur.

Naxçıvan regionunda meliorasiya və irriqasiya sistemlərinin inkişafı bütün dövrlərdə diqqət mərkəzində saxlanıb. Burada su ehtiyatlarını artırmaq məqsədilə mövcud su anbarlarında təmir işləri aparılır, yenilərinin tikilməsi üçün müvafiq tədbirlər həyata keçirilir.

***Nazim ƏHMƏDOV,***
***İqtisad elmləri doktoru, professor***

# Maska taxmamağa görə 200 manat cərimə - məsuliyyətli insanlar yüksək məbləği zəruri sayır...

**Bütün dünyanı əhatə edən koronavirus pandemiyası bir çox ölkələrin tətbiq etdiyi sərt karantin tədbirləri nəticəsində bir qədər səngiyib. Virusun yayılmasının qarşısının alındığını söyləmək hələ çox tez olsa da, artıq bir çox ölkələrdə sərt karantin tədbirləri qismən yumşaldılmağa başlanıb.**



## *Rasif Bağırov: "Hazırkı durumda isə maskanın taxılması və sosial məsafənin qorunması vacib şərtdir"*

Amma karantini yumşaldan ölkələrin çoxu vətəndaşların qarşısına bəzi vacib şərtlər də qoyur.

Ölkələr iş yerlərinin, ictimai-iaşə obyektlərinin açılması müqabilində vətəndaşlardan sosial məsafəni qorunmağı, evindən çıxan hər bir şəxsin mütləq şəkildə maska taxmağı tələb edir.

Azərbaycan da karantin rejimini yumşaldan ölkələr arasındadır. Amma nədənsə, azacıq azadlıq alan insanlar küçələrə axışan zaman sosial məsafə saxlamır, qoruyucu maskalardan istifadə etmir. Nəticədə isə son günlər virusa yoluxanların sayı artır. Qoruyucu maskalardan hər kəsin istifadə etməsi üçün bu sahədə sərt qaydalar tətdbiq edilməyə başladı. Belə ki, qapalı məkanlarda tibb maska taxmayanlar cərimələnəcək. Maska taxmamağa görə tətbiq olunacaq cəriminin məbləği də açıqlanıb. Belə ki, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər 50 manat məbləğində, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər 200 manat məbləğində cərimə ediləcək. Bu xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövrü başa çatanadək təkrar törədilməsinə görə fiziki şəxslər 100 manat, vəzifəli şəxslər 200 manat, hüquqi şəxslər 400 manat məbləğində cərimələnəcək.

*"Gigiyena qaydalarına əməl etməyən, maskadan istifadə etməyən adamların sadəcə öz səhhətlərinə etinasız yanaşması yox, həm də ətrafdakı insanların sağlamlığını risqə atmasıdır"*

Ekspertlərdə tibbi maska taxmayan şəxslərin cərimələnməsinin tərəfdarıdır. Həkim ekspert Rasif Bağırov bildirdi ki, maska taxılması məcburi olmalıdır. Bu gün bir çox ölkələr karantin rejimini yumşaldarkən insanların qarşısına məcbiri maska taxmaq tələbini qoyur: "Məsələn, Almaniyada da bu təcrübəni görə bilərik. Azərbaycanda insanlar sosial məsafəni gözləmədikləri üçün maska taxmaq zəruri olmalıdır. Ünsiyyət zaman hava vasitəsilə yoluxmanın qarşısının alınmasında maska önəmlidir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, hazırkı durumda isə maskanın taxılması və sosial məsafənin qorunması vacib şərtdir: "Gigiyena qaydalarına əməl etməyən, maskadan istifadə etməyən adamların sadəcə öz səhhətlərinə etinasız yanaşması yox, həm də ətrafdakı insanların sağlamlığını riskə atmasıdır. Bu səbəbdən də koronavirusa yoluxmaların sayının azaldılması və situasiyanın nəzarətdə saxlanması üçün dövlət qurumları mövcud qanunvericilik çərçivəsində müvafiq addımlar atmağa məcbur qalıblar. Belə ki, İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, ictimai nəqliyyatda maskadan istifadə etməyən şəxslər 50-400 manat məbləğində cərimələnəcəklər".

***Günel CƏLİLOVA***

# Avropada qalmış tələbələrimizin 15 iyundan sonra ölkəyə gətirilməsi - dövlət hesabına, ya şəxsi vəsaitlə qayıdış gündəmdə...

**Bildiyimiz kimi Nazirlər Kabineti yanında Operativ Qərargah Azərbaycanın dövlət sərhədinin bağlanması müddəti iyunun 15-ə qədər uzadılıb.**



## *Kamran Əsədov: "Onların ölkəyə gətirilməsini birbaşa dövlət öz üzərinə götürməlidir"*

Bu barədə qərar COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması üzrə həyata keçirilən tədbirlər çərçivəsində verilib. Əksər dövlətlər öz sərhədlərinin müvəqqəti olaraq bağlanması və beynəlxalq uçuşların təxirə salınması müddətini artırıb.

Bu gün pandemiyaya görə sərhədlərin bağlı olması və uçuşların təxirə salınması nəticəsində xeyli sayda vətəndaşımız xarici ölkələrdədir. Bildiyimiz kimi indiyə qədər Azərbaycan dövlətinin təşkil etdiyi təyyarə reysləri ilə dövlət hesabına 20 min nəfərdən artıq vətəndaşımız müxtəlif ölkələrdən dövlət hesabına təxliyə olunublar.

Bu gün Avropa ölkələrində çoxlu sayda azərbaycanlı tələbələr qalıb. Onların iyunun 15-dən sonra Azərbaycana qayıtması məsələləsi çox aktualdır. Bu tələbələrin evə qayıdışı necə həyata keçirilməlidir, dövlət hesabına, "evə qayıdıram" portalı vasitəsilə, yoxsa şəxsi büdcələri daxilində?

Ekspertlər hesab edirlər ki, Avropada, eləcə də digər xarici ölkələrdə təhsil alan tələbələrin təxliyə edilməsinə dövlət dəstək göstərsə onların ailələrinə kömək olardı. Ekspertlərin sözlərinə görə, qaydalara əsasən xaricdən təxliyə edilənlər öz hesablarına prosesə qoşulmalıdır. Amma onlara görə, aztəmiantlı aiələrin xaricdə təhsil alan tələbə övladlarının vətənə gətirilməsinə dövlət dəstəyinin göstərilməsi arzuediləndir.

Tanınmış təhsil eksperti Kamran Əsədov baki-xeber.com hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı 40 minə yaxındır. "Onlardan 15 mini qardaş Türkiyədə, 20 mindən çoxu Rusiya, Ukrayna, Gürcüstan universitetlərində təhsil alır. Xarici ölkələrdə təhsil almaq üçün gedənləri əsasən bir neçə qrupa bölmək olar. Onlardan biri Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında topladıqları ballar burda ali məktəblərə qəbul olmağa imkan verməyənlərlədir ki, bunların sayı hədsiz dərəcədə çoxdur. Bu kateqoriyaya aid olan şəxslər daha çox Ukrayna, Rusiya, Dərbənd, Dağıstan, Gürcüstan kimi ərazilərin universitetlərində təhsil almağa üstünlük verirlər. Səbəb isə odur ki, bu universitetlərdə hətta prestijli ixtisaslarda təhsil alsalar velə, qeyri - qanuni yollarla təhsillərini başa vura biləcəklər. Bu ölkələrdə təhsil almağa gedənlərin əksəriyyəti hüquq, maliyyə - iqtisadiyyat kimi ixtisaslara daha çox üstünlük verirlər. İkinci kateqoriyanı o şəxslər təşkil edir ki, onlar Azərbaycanda ali məktəblərə qəbul olurlar, amma aldıqları təhsil onları qane etmir. Ona görə də daha yüksək səviyyədə təhsil almaq üçün onlar xarici ölkələrə üz tuturlar. Müəyyən şəxslər də var ki, ali təhsil almaq istəyir, amma Azərbaycanda təhsil haqları yüksək olduğu üçün daha ucuz təhsil haqqı olan ölkələrə gedirlər. Bu şəxslər daha çox Türkiyə, Macarıstan, və digər Avropa ölkələrinin universutetlərinə üz tuturlar və seçdikləri ixtisaslar Tibb, Komputer və ya informasiya texnologiyaları, nano texnologiya kimi ixtisaslar olur. Üçününcü kateqoriyanı isə Azərbaycan Respublikası Prezidentinin 2007-2015-ci illəri əhatə edən Xaricdə təhsil Dövlət Proqramı çərçivəsində xarici ölkələrdə təhsil almağa gedənlər təşkil edir. Mart ayından etibarən ölkəyə giriş çıxışın məhdudlaşması həm xarici ölkələrdə təhsil alan tələbələrin, eyni zamanda, ölkəmizdə təhsil alan əcnəbi tələblərin ölkələrrinə qayıtmasında sıxıntılar yaradıb. Düzdür, hər bir ölkə daxili imkanları hesabına bu məsələni həll etsə də, getdiksə müddətin uzanması maddi çətinlikklərlı yanaşı, xarici ölkələrdə qalan tələbə soydaşlarımıza psixoloji gərginlik də yaradır.

Belə olan halda, təbii ki, onların ölkəyə gətirilməsini birbaşa dövlət öz üzərinə götrməlidir. Çünki fərdi qaydada vətəndaşlar öz hesablarına tələbə övladlarının vətənə təxliyə edilməsinə maddi gücləri çatmadığı üçün buna nail olmaqda çətinlik çəkə bilərlər. Açığı, onların çoxunun buna maddi cəhətdən gücü çatmayacaq. Azərbaycan dövləti həmişə vətəndaşının, gələcək kadrlarının yanında olub. Ona görə də hesab edirəm ki, bu dəfə də dövlət pandemiya səbəbi ilə xarici ölkələrdə qalmış gələcək kadrlarımıza sahib çıxıb onların doğma vətənə təxliyəsini təmin edəcək" - deyə K.Əsədov vurğuladı.

***İradə SARIYEVA***

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) Azərbaycanda koronavirus pandemiyasının nəticələrinin aradan qaldırılmasına yönəlmiş müxtəlif layihələr həyata keçirməyi planlaşdırır. Bu barədə FAO-nun tərəfdaşlıq və koordinasiya ofisinin rəhbəri Melek Çakmak media nümayəndələrinə açıqlamasında deyib.**

*"Pandemiyadan sonra kənd təsərrüfatı sahəsində qeydə alınan boşluqları doldurmaq üçün ölkə daxilində bu sahənin inkişafına daha çox önəm verilməlidir"*

# Dünya Ərzaq Təşkilatının Azərbaycanda pandemiya dövrü üçün planları - yerli tədarük və idxal...

***Rüfət Quliyev:** "Pandemiyadan sonra şəhərdəki iş yerlərində yaranmış səngimələr də aqrar sahənin inkişafına özünəməxsus təkan verir və verəcək"*

O qeyd edib ki, FAO-nun əsas məqsədi pandemiyadan sonra kənd təsərrüfatı zəncirindəki boşluqları doldurmaq, ərzaq istehsalının dayanıqlılığını təmin etmək və təbii ehtiyatların daha səmərəli idarə olunması üçün mümkün qədər çox ölkəyə dəstək verməkdir.

Pandemiya dövrü və karantin rejimi bitəndən sonra Azərbaycanın aqrar sektorunun vəziyyəti ilə bağlı fikir bildirən millət vəkili Rüfət Quliyev qeyd etdi ki, koronavirus pandemiyası ilə əlaqədar olaraq insanların paytaxtdan bölgələrə axını sürətlənib. Məlumdur ki, paytaxtda iş yerlərinin bir qismi qapadılıb: "Bölgələrdə ölkə rəhbərinin tapşırığına və göstərişlərinə uyğun olaraq görülən işlər, aqrar sektorun inkişafı artıq şəhərdən regionlara axına səbəb olub. Bu da təbiidir, çünki artıq insanlarımızın kənddə torpaqdan qazanmaq imkanları genişlənib. Digər tərəfdən, kəndlinin gəlir yerləri var. Bunlar taxılçılıq, pambıqçılıq, heyvandarlıqdır. Bu sahələr xüsusilə dövlət tərəfindən verilən subsidiyalar hesabına getdikcə daha çox inkişaf etməyə başlayıb. Artıq insanlar paytaxtda qərarlaşmır, rayonlarda nəninki mövsümü işlər görürlər, həmçinin torpaq sahələrini icarəyə götürməklə, müəyyən sahibkarlara qoşulmaqla kənd təsərrüfatının inkişafına nail olurlar. Ötən il aqrar sektorda qeydə alınan müsbət nəticələr bunu deməyə əsas verir. Xatırladım ki, ötən il üzümçülük, pambıqçılıq, tərəvəzçilik, baramaçılıq sahəsində yüksək inkişaf müşahidə olundu".




Həmsöhbətimiz onu da əlavə etdi ki, pandemiyadan sonra şəhərdəki iş yerlərində yaranmış səngimələr də aqrar sahənin inkişafına özünəməxsus təkan verir və verəcək: "Nəzərə almaq lazımdır ki, kənd təəsrrüfatı elə bir sahədir, ərzaq təhlükəsizliyinin təmin olunması üçün fəaliyyəti bir an belə dayandırıla bilməz.

O da bəllidir ki, hazırda aqrar sektorun elə bir dövrüdür ki, ara verilə bilməz. Bu səbəbdən də insanlar kütləvi şəkildə deyil, sosial məsafəyə riayət edilməklə torpaqda çalışması həyata keçirilməlidir".

Millət vəkilinin sözlərinə görə, pandemiyadan sonra kənd təsərrüfatı sahəsində qeydə alınan boşluqları doldurmaq üçün ölkə daxilində bu sahənin inkişafına daha çox önəm verilməlidir. Bununla yanaşı, daxildə istehsal olunmayan və ya az istehsal olunam məhsulların idxalına diqqət yetirilməlidir.

**Günel CƏLİLOVA**

**Dünya səhiyyəsinin inkişaf etdiyi bir dövrdə xəstəliklərin sayı durmadan artır. Lakin müasir elm bəzi xəstəliklərin qarşısında hələ də acizdir. İnsanlar bəzi xəstəliklərin yaranmasını ekologiyanın çirklənməsi və qida məhsullarının keyfiyyətsiz olması ilə əlaqələndirirlər.**

***Rəşid Mahmudov:** "Kişilərimizi kişilikdən salan, qadınların uşaq doğmasına mane olan, insanları kökəldən məhsullardan biri də palma yağıdır"*

***Adil Qeybulla:** "İstifadə etdiyimiz yağların dad xüsusiyyətləri kərə yağı səviyyəsinə çatdırılmış yağlardır, palma və müxtəlif bitki yağları buna misaldır"*

# Palma yağlarının insana təhlükəsi barədə deyilənlər doğrumu...

Gündəlik qida rasionumuzda önəmli yer tutan yağların mənşəyi hər zaman müzakirə edilib. Bir çox qida məhsullarında palma yağından istifadə edilir. Aparılan araşdırmalara görə, son zamanlar impatent kişilərin sayı artır. Bunun səbəbi kimi də gündəlik rasionda istifadə olunan qidalar göstərilir. İlk olaraq, palma yağının kişi sonsuzluğa səbəb olduğu iddia olunur.

Azərbaycan Tibb Universitetinin (ATU) dosenti, tanınmış həkim Rəşid Mahmudov bildirdi ki, qida sektoru sahəsində müəyyən problemlər var: "Xüsusən də, palma yağlarında. Bu yağdan istifadə edilməməlidir. Palma yağını marqarinə də, uşaq yeməklərinə də, ümumiyyətlə, çox şeyə qatırlar. Biz aldığımız kərə yağının çox faizi palma yağıdır. Kişilərimizi kişilikdən salan, qadınların uşaq doğmasına mane olan, insanları kökəldən məhsullardan biri də palma yağıdır. Bu, bir bizim ölkəmizdə var. Dünya bundan imtina edib. Yediyimiz qidaların bir çoxunda kişiliyə təsir edən amillər var. Palma yağı isə əsas yer tutur. Çox kök olan qadınlar var, bütün gün yeyirlər, bax, onları da o günə qoyan xoşagəlməz qidalardır. Boşanmalarla bağlı olan fikir də doğrudur. Təbii qidalar olmasa, insanlar arasında inkişaf olmayacaq. Qidamızı təmin etməliyik. Hazırda süni ət düzəldirlər. Bu, xarici ölkələrdə də var. Qida xalqın yaşam tərzidir. Onun üzərində mükəmməl nəzarət olmalıdır".



Professor , tibbi ekspert Adil Qeybulla da bildirdi ki, Azərbaycanda satılan kərə yağlarının heç biri standartlara uyğun deyil: "Əslində, istifadə etdiyimiz yağların dad xüsusiyyətləri kərə yağı səviyyəsinə çatdırılmış yağlardır. Palma və müxtəlif bitki yağları buna misaldır. Bununla bağlı dəfələrlə məsələ qaldırılıb, lakin yağ bazarına nəzarət edən strukturlar bunu qətiyyətlə təkzib edir. Onu sübut etmək üçün isə əlimizdə xüsusi bir laboratoriya olmalıdır. Ümumiyyətlə, sübut olunub ki, yağların həddən artıq qızardılması, dağ edilməsi nəticəsində konseregen tipli maddələr əmələ gəlir. Onlar da çökərək damar divarlarını qalınlaşdırır. Ürək-damar xəsəliklərinə səbəb olur. Bu gün xərçəng xəstəliyinin artmasına səbəb ölkədə qidalanma məsələsidir. Onların da bir hissəsi yağların payına düşür. Yağlarla çox ehtiyatlı olmaq lazımdır. Onlar insanlarda xüsusi asılılıq yaradır. Bu da uzun müddət istifadə etdiyimiz, öyrəşdiyimiz qida rasionumuza ziddir".

**Günel CƏLİLOVA**

№ 85 (4216) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

1 İYUN 2020-ci il



# Nikotin asılılığını azaltmağa kömək edən məhsullar...

Nikotin asılılığını azaltmaq prosesini yüngülləşdirən qida məhsullarının adları açıqlanıb.

"Trend"in məlumatına görə, mütəxəssislərin fikrincə, sitrus bitkiləri siqaret çəkmək istəyini aradan qaldıra bilər. Qreypfrut, portağal, limon kimi meyvələrdə olan turş dad C vitamini azlığının qarşısını alır. Qeyd edək ki, C vitamini orqanizmə nikotin daxil olarkən azalır. Acı şokolad da siqaret çəkmək istəyini azalda bilir. Bundan başqa, nikotin azlığından əziyyət çəkənlər bu maddəni badımcan vasitəsilə əldə edə bilər. Mütəxəssislər qeyd edir ki, bu tərəvəzlərdə nikotin turşusu mövcuddur. Zəncəfilin acı dadı da siqaret çəkmək istəyinin qarşısını alır. Belə ki, onun özünəməxsus dadını azaltmaq üçün bal və limonla qarışdırmaq məsləhət görülür. Tərkibində antibakterial sulforafan maddəsi olan brokkoli, gül kələmi və kolrabi də nikotindən asılılığın qarşısını almaqda kömək edir.

## Xərçəng dərmansız müalicə olunacaq?

**Xərçəngi dərmansız məğlub etməyin mümkün olacağı bildirilir. Artıq bununla bağlı prostat və süd vəzi şişləri olan insanlar sınaqdan keçirilir.**

"E-tibb.az" bildirir ki, ABŞ və İtaliyadan olan alimlər xərçəngə qarşı mübarizədə C vitamini və aclığın təsirinin olduğuna dair yeni sübutlar tapıb. Mütəxəssislər xərçənglə mübarizə üçün əsas vasitə olaraq aşağı kalorili bitki mənşəli pəhrizdən istifadə edirlər. Bu qida rejimi hüceyrəni aclığa verdiyi reaksiya ilə eyni reaksiya verməyə məcbur edir. Müalicənin ikinci hissəsi yüksək dozada C vitamini qəbulu ilə bağlı olub. Test nəticələri göstərib ki, aclıq və antioksidant qəbulu nəticəsində xərçəng müalicəsində ən çətin hesab olunan KRAS mutasiyası olan bütün xərçəng hüceyrələri ölür. Bu şişlər bütün bədxassəli yeni törəmələrin dörddə birini təşkil edir. Siçanlar üzərində müalicə metodunun təkrar öyrənilməsi effektivliyi sübut edib. Şişlər ya inkişafını dayandırıb, ya da tədricən aradan qalxıb. Hazırda komanda döş və prostat problemi olan xəstələrdə bu metodun xərçəng əleyhinə dərmanlarla birlikdə təsirini araşdırır. Nəticələr ürəkaçan olsa, geniş klinik sınaqlar keçiriləcək.

## Göbələk beyni qoruyur

**Göbələk tərkibindəki vitamin və minerallar sayəsində yaşlanmanı yubadır, beyin və sinir sistemini alzheymer kimi xəstəliklərdən qoruyur.**

Göbələyin bitki mənşəli qidalar arasında ən bəsləyicilərdən biri olduğunu söyləyən mütəxəssislər, ətə yaxın miqdarda və çox dəyərli bir zülal qaynağı olmasıyla yanaşı, göbələyin orqanizm üçün lazım olan bütün amin turşuları ilə zəngin olduğunu bildirib.



## Cavanlarda da ölümə səbəb olan problem: insultdan qorunmaq üçün nə etmək lazımdır?

**İnsult beyin qan dövranının kəskin, qəfildən və 24 saat ərzində baş verən pozuntusudur. İnsult müasir dövrdə həm nevrologiyanın, həm tibbin, həm də cəmiyyətin ən aktual tibbi-sosial problemi olaraq qalır.**



"E-tibb.az" bildirir ki, bunu tibb elmləri doktoru, Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun Kliniki-Neyrofiziologiya Laboratotiyasının rəhbəri, professor Sədaqət Hüseynova deyib. Mütəxəssis bildirib ki, insult həm ölüm, həm də əlillik səbəbləri arasında ön sırada duran problemdir. Hər il dünyada 6 milyona qədər insan insult keçirir, onlardan 4,5 milyonu həyatını itirir, yerdə qalanların 60 faizi əlil olur, təxminən 20 faizi əvvəlki həyatını davam etdirə bilir. S. Hüseynova pandemiya dövründə də insultların öz aktuallığını qoruduğunu bildirib. Qeyd edib ki, COVİD-19-a yoluxanlar arasında, infeksion xəstəliklə yanaşı, sinir sisteminin bir sıra pozuntularına da rast gəlinir. Bunların sırasında müxtəlif yaş qruplarını əhatə edən insultlar da var. Dünyada insulta yeni yanaşmaların olduğunu vurğulayan həkim deyib ki, artıq insult xəstələri insult mərkəzlərində müalicə olunur. Onun sözlərinə görə, Azərbaycanda da bu istiqamətdə işlər aparılır. Dünyada insulta ən çox kişilərdə rast gəlindiyini bildirən mütəxəssis deyib ki, artıq müasir dövrdə insult hər yaşda rast gəlinən hala çevrilib. Proqramın digər qonağı, Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun Neyrofiziologiya şöbəsinin elmi işçisi, həkim-nevroloq Mərziyyə Məmmədova insultun səbəbləri, risq faktorlarından danışaraq bildirib ki, yüksək təzyiq, ailəvi şəkər, ürək-damar xəstəliklərinə meyllilik əsas risq faktorlarından sayılır. O, bu gün ən cavan xəstələrdə də insult yarandığını vurğulayıb. Nevroloq deyib ki, bunun əsas səbəblərindən biri beyin anevrizmasıdır. Yüksək təzyiq nəticəsində anevrizma cırılır və ölüm baş verir. M.Məmmədovanın sözlərinə görə, alkoqol, tütün istifadəsi, yuxu pozulması, fiziki aktivliyin aşağı olması insultla bağlı risq faktorlarıdır. O, risq qrupuna daxil olanlara hər gün piyada gəzməyi, gün ərzində ən azı 8-10 min addım atmağı tövsiyə edib. Bundan başqa, insultdan qorunmaq üçün təzyiqi daim normada saxlamaq, duzdan az istifadə etməyin vacib olduğunu vurğulayıb.





**Qoç** - Sizi dilə tutmaq çəkin deyil. Belə olmamalıdır. Mövqelərinizi müdafiə edin. Başqalarının dedikləri ilə dərhal razılaşmayın. Maraqlar münaqişəsi olarsa, güzəştə getməyi bacarın. İstənilən sağlamlıq prosedurlarında xeyir var.



**Buğa** - Mühüm işlərdən birini unutmayın. Adi günlərdən fərqli olaraq diqqətsiz davranmayın. Emosional fon stabil deyil. Əhvalınız sürətlə dəyişəcək. Yaxın ətrafınızdakı insanlar nə baş verdiyini anlamağa çətinlik çəkirlər.



**Əkizlər** - Yeni planlar və ideyalar yaranır. Onların reallaşdırılmasını təxirə salmayın. Nə qədər tez işləməyə başlasanız, nəticəyə bir o qədər tez nail olarsınız. Qəfil səfər, çoxdan bəri görmədiyiniz insanlarla görüş istisna deyil.



**Xərçəng** - Yaşananlara həddən ziyadə emosional reaksiya verməyin. Ən xırda məsələləri ürəyinizə salmayın. Yaxınlarınız sizi dəstəkləməyə, yardım göstərməyə hazırdır. Hisslərinizi gizlətməyin.



**Şir** - Görüşlər üçün əlverişli zamandır. İşgüzar maraqlarla bağlı olduğunuz insanlarla təmaslarda aktiv olun. Birgə biznes, yeni kommersiya layihəsi ilə bağlı məsələləri qeyri-formal şəraitdə müzakirə etmək olar.



**Qız** - Maliyyə baxımından çox əlverişli gündür. Əhəmiyyətli məbləğdə gəlir əldə edə bilərsiniz. Alış-veriş, sövdələşmələr, anlaşmalar və sifarişlər üçün münasib zamandır. Əslə gözləmədiyiniz halda işgüzar təklif alacaqsınız.



**Tərəzi** - Günün ilk saatları gərgin və çətin olacaq. İşlərin əksəriyyəti gözləntilərinizin əksinə olacaq. Dostlar, yaxınlar və qohumlarla ünsiyyətdə problemlər yaranacaq. Narahat olmayın, saatlar keçdikcə müsbət təmayüllərin təsiri artacaq.



**Əqrəb** - Gərgin, amma çox maraqlı gündür. Ən yaxşı məziyyətlərinizi, bilik və bacarıqlarınızı nümayiş etdirə bilərsiniz. İşlər çox olsa da, yardımçılarınız və köməkçiləriniz az olmayacaq.



**Oxatan** - Asan və rahat gündür. İşlərin axarı pis deyil. Məcra ilə hərəkət edin, olaylara süni təkan verməyin. Faydalana biləcək insanlarda özünüzlə bağlı xoş təəssürat yaratmağa can atın. Axşam saatlarında xoş tanışlıq ola bilər.



**Oğlaq** - Əvvəllər başladığınız işi başa vurmaq imkanı var. Bütün diqqəti işlərə yönəldin. Ailə üzvlərinin əyləncə və istirahət tələblərini qulaqardına vurun. Onlardan fərqli olaraq, sizin boş vaxtınız yoxdur və üstəlik, pul qazanmalısınız.



**Dolça** - Qarşınıza qoduğunuz məqsədə çatmaq asan olmasa da, bədbinliyə qapılmayın. Səhər saatlarında alınmayan işi yarımçıq saxlamayın. Qətiyyətli və iradəli olun. Günün ikinci yarısına doğru aktivləşin.



**Balıqlar** - Söhbət və görüşlərin heç də hamısı xoş olmayacaq. Başqa günlərdə mütləq şəkildə yayımağa çalışacağınız söhbətlərə, müzakirələrə qatılmaq məcburiyyətində qalacaqsınız.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Yaponiyada kosmonavtı əvəzləyəcək robot hazırlanacaq



**Yaponiyada kosmonavtları əvəzləyəcək robot hazırlanacaq. Robot vasitəsilə həm xərclər azalacaq, həm də real insanların həyatına olan təhlükə aradan qaldırılacaq.**

Layihə Gitai startap əsasında hazırlanır. "Ted.az" bildirir ki, startap müəlliflərinin fikrincə, robot kosmonavtı əvəzləsə, bu zaman Yaponiya aerokosmik xərclərinə 90% qənaət edə bilər. "Qənaət ediləcək xərclər real insanların kosmosa uçuşa ilə bağlıdır. Robotları olduqca çox funksiyalı etmək lazımdır ki, onlar kosmosda insanları əvəzləyə bilsinlər", - deyə startap müəllifləri bildiriblər. Yaponiyalı kosmonavtlar etiraf edirlər ki, Kosmosda elmi tədqiqat aparmaq üçün onlara robot lazımdır.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).

«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.